www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  20 fevral  2015-ci il   Cümə  № 39 (6067)  Qiymәti   40 qәpik

**Xəbər**

## Mülki Müdafiə Qərargahının rəisi rüşvətə görə tutuldu

yazısı səh.15-də

**Gündəm**

### Müsavatçı qardaşların məhkəməsi keçirildi




Fərəc Kərimli dövlət vəkilindən imtina etdi; Nemət Kərimli: "Məhbusun istədiyi vəkil gəlmirsə..."

yazısı səh.4-də

### ABŞ-la yaradılacaq ortaq qurumun konturları məlum deyil

yazısı səh.9-da

### Novruz ərəfəsində əfv olacaq

yazısı səh.7-də

### "Qürbətdəki BİZ "in ilk qonağı: "Fransızlarda qadına sitayiş var"

yazısı səh.13-də

### "Özgecana dəstək" kampaniyası Azərbaycanda aranı qatdı

yazısı səh.12-də

*Politoloq:*

### "Ermənistan hakimiyyəti nevroz vəziyyətindədir"

yazısı səh.11-də

### Hakimiyyətlə növbəti görüşdə hansı mövzu müzakirəyə çıxarılacaq?

yazısı səh.3-də

### Elnurun Türkiyədəki qələbəsi Azərbaycanı coşdurdu

yazısı səh.5-də

### Bu gün Lamiyə Quliyevanın məkəməsidir

yazısı səh.5-də

### Xocalı soyqırımı ilə bağlı böyük kampaniya başlayıb

yazısı səh.9-da

### ATƏT PA-da Minsk Qrupunun dəyişdirilməsi təklif olundu

yazısı səh.2-də

### Ölüm hökmü bərpa edilə bilərmi?

yazısı səh.12-də

## Müdafiə nazirimizin fəaliyyəti ilə bağlı ilginc detallar

# ZAKİR HƏSƏNOV MÜHARİBƏ HAZIRLIQLARI İÇƏRİSİNDƏ

Azərbaycan ordusu hər an başlaya biləcək döyüş hazırlıqlarını artırır; nazir həftəiçi 5 gün ön cəbhədəki hərbi hissələrə baş çəkir; beynəlxalq şərtlər Azərbaycanın lehinədir və Rusiyanın da Ermənistanın cığallığına sonadək dözmək fikri yoxdur...



yazısı səh.6-da

## Abbas Abbasov Azərbaycan xalqını aşağıladı

Erməniyönlü sayta müsahibəsində "Alver qanımızdadır" deyən RATİ-nin odioz üzvü "AzerRos"u əldə saxlamaq üçün son həmləyə hazırlaşır; Azərbaycanın Rusiyadakı səfirinin müavinindən Abbasovun ünvanına sərt ittihamlar gəldi

yazısı səh.8-də



### Əli İnsanov türmədə NİDA-çını sağaltdı

yazısı səh.7-də



### "A.M.A.Y. Abdulla" məhkəmədə "danışacağam" xəbərdarlığı etdi

yazısı səh.7-də



### Aslan Aslanovun həbs etdirdiyi iş adamından şok məktub

yazısı səh.10-da



# Prezident yeni ABŞ səfiri ilə görüşdü

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanın etimadnaməsini qəbul edib. AzərTAc bildirir ki, səfir R. Sekuta fəxri qarovul dəstəsinin qarşısından keçib və etimadnaməsini prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan prezidenti səfirlə söhbət edib.**

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələri əhatə etdiyi məmnunluqla qeyd olunub. Bu əlaqələrin regional əməkdaşlıq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, enerji, nəqliyyat və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

Səfir R. Sekutanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı Azərbaycan-ABŞ münasibətlərinin perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Niyə məhz Almaniya və Türkiyə?

**Almaniya hər iki münaqişə tərəfi ilə sıx əməkdaşlıq edir, Bundan əlavə, onun hazırkı üç həmsədr dövlət olan ABŞ, Rusiya və Fransa ilə yaxın əməkdaşlıq çərçivəsində AB-nin potensial imkanları və resurslarından, xüsusilə də Azərbaycan və Ermənistanın da üzv olduğu Şərq Tərəfdaşlıq Proqramından effektiv şəkildə istifadə imkanları vardır. Bu təşəbbüslə çıxış edərkən sizə Almaniya kansleri xanım Angela Merkelin Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişənin həllində öz ölkəsinin fəal rol oynamasında maraqlı olduğu və buna hazır olması barədə bəyanatını xatırlatmaq istəyirəm.**

Türkiyənin isə Qafqazda çoxəsrlik tarixi əlaqələri və təsir imkanları var ki, bunu yuxarıda adları çəkilən digər 4 ölkənin resursları ilə birləşdirməklə tərəflərin qısa müddət ərzində sülh sazişini imzalamasına öz töhfəsini verə bilər. Ermənistanın Türkiyə ilə sərhədlərinin açılması və əlaqələrinin yenidən qurulması istiqamətindəki danışıqlarını, Türkiyənin isə bu normallaşma prosesinin Dağlıq Qarabağ probleminin həllindən asılı olmasıyla bağlı mövqeyini buna əlavə etsək, Türkiyənin həmsədrliyi bu baxımdan məntiqi və müsbət hesab edilə bilər.

Ona görə də ATƏT-in hazırkı sədri, Serbiyanın xarici işlər naziri cənab Ivica Dacicdən, eləcə də ATƏT Nazirlər Şurasından xahiş edirəm ki, bu təklifimi mövcud qaydalar çərçivəsində nəzərə alsınlar.

ATƏT sədri, Serbiyanın xarici işlər naziri cənab İvica Dacic A.Quliyevin təklifinin müzakirə ediləcəyini bildirib.

# Rusiya XİN-dən növbəti Qarabağ bəyanatı

**Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində gərginlik Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesini yaxınlaşdırmır. "Trend"in "Rossiya 24" telekanalına istinadən verdiyi məlumata əsasən, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç brifinqdə deyib.**

Onun sözlərinə görə, qoşunların təmas xəttində baş verənlər təşviş yaradır və ATƏT-in bütün iştirakçı dövlətlərinin çalışdığı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə yaxınlaşdırmır: "Rusiya münaqişənin nizamlanmasında aktiv rol oynayır və bu, təkcə həmsədrlər deyil, həm də ikitərəfli təmaslarda edilir".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# ATƏT PA-da Minsk Qrupunun dəyişdirilməsi təklif olundu

## ATƏT sədri İvica Dacic Azay Quliyevin təklifinin müzakirə ediləcəyini bildirib



**Fevralın 19-da ATƏT PA-nın XIV qış sessiyasında qurumun Büro üzvü, Komitə sədri əvəzi Azay Quliyev həmsədrlik institutunun dəyişdirilməsi təklifi ilə çıxış edib. Musavat.com-un məlumatına görə, A.Quliyev deyib:**

- Diqqətinizi 20 ildən artıq müddətdir ki, davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış, lakin ötən dövr ərzində heç bir uğurlu nəticə əldə etməmiş Minsk Qrupunun (MQ) həmsədrləri ilə bağlı irəli sürmək istədiyim bir təklifə çəkmək işəyirəm. MQ-nin uğursuzluğu bizi daha effektiv mexanizmlər və yeni yanaşmalar axtarmağa vadar edir.

Belə hesab edirəm ki, hər şeydən öncə biz həmsədrlik institutunun tərkibini nəzərdən keçirməli və formatı digər iştirakçı dövlətlərin cəlb edilməsi ilə genişləndirməliyik. Bu baxımdan ən münasib ölkələrin Almaniya və Türkiyə ola biləcəyini nəzərə alaraq hər iki dövlətin cəlb edilməsi ilə biz Minsk Qrupunun hazırkı həmsədrlik institutunu "5-lik Sədrlər Şurası" ilə əvəzləyə bilərik.



# Bir qrup gənc Qubad İbadoğlunun hərəkatından istefa verib

**Müsavat Partiyası başqanlığına sabiq namizəd, partiyadan kənarlaşdırılan Qubad İbadoğlunun təşəbbüsü ilə yaradılan Azərbaycan Demokratiya və Rifah Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun sədri və üzvləri birgə bəyanatla çıxış edib.**

APA-ya daxil olan bəyanatda bildirilir ki, ADR-in tutduğu mövqe milli deyil, qərbyönümlü olduğundan hərəkatdan ayrılmaq haqqında qərar veriblər: "Biz ADR hərəkatına qoşulan millətinə bağlı gənclər olaraq Azərbaycan Demokratiya və Rifah Hərəkatının yaradılmasında təməl prinsiplərdən birinin də xalqımızın milli mənəvi dəyərlərini təbliğ etmək, həmin dəyərləri xarici və yad elementlərin basqısından qorumaq və sahib çıxmaq kimi milli-ideoloji hədəflər olacağına əmin idik. Lakin gedən proseslər hərəkatın milli-ideoloji baxımdan bizim milli-ictimai baxışlarımız ilə üst-üstə düşmədiyini göstərdi. Biz həm də öz gizli maraqlarını güdən, bu maraqları naminə bütün çirkin oyunlara gedən məlum dünya gücləri ilə yaxınlaşmayan, ancaq millətimizin milli-mənəvi iradəsinə söykənən bir təşkilatda təmsil olunmaq üçün ADR-i seçdik, amma bunun əksinə olaraq ADR Hərəkatının açıq qərbmeylli mövqeyi bizi bir daha düşünməyə vadar edib. Bu səbəbdən biz elan olunmaq mərhələsini yaşayan ADR hərəkatının iştirak, təşkilatlanma və quruculuq prosesindən rəsmən ayrıldığımızı bəyan edirik".

Bəyanatı ADR Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun sədri Xəyyam Məmməd, ADR Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun üzvü Ceyhun Bəhramov, ADR Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun üzvü Vüsal İsayev, ADR Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun üzvü Asiman Əlili, ADR Hərəkatının Gənclər üzrə Təşəbbüs Qrupunun üzvü Əfqan Əhmədov imzalayıblar.

Xatırladaq ki, fevralın 21-i ADR-in təsis konfransı keçiriləcək.

# Elmar Qasımov AFFA-dan istefa verdi

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) Nizamnaməsinə əsasən, İcraiyyə Komitəsinin üzvləri AFFA-nın üzvü olan təşkilatların müvafiq bölgüsünə uyğun şəkildə seçilir.**

Nizamnamənin 34-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq İctimai Futbol Təşklatları İctimai Birliyi İcraiyyə Komitəsində 2 üzvlə təmsil olunmalıdır. İcraiyyə Komitəsinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov AFFA rəhbərliyinə ərizə ilə müraciət edərək, işlərinin çoxluğu səbəbindən İcraiyyə Komitəsinin üzvlüyündən istefa verdiyini bildirib və istefasının qəbul olunmasını xahiş edib.

Modern.az xəbər verir ki, bu barədə AFFA məlumat yayıb.

Bununla bağlı, İctimai Futbol Təşklatları İctimai Birliyi tərəfindən təhsil nazirinin müavini Firudin Qurbanovun İcraiyyə Komitəsinin üzvlüyünə namizədliyi irəli sürülüb və seçki AFFA-nın 2015-ci il martın 6-da təşkil olunacaq növbəti konfransında keçiriləcək. Firudin Qurbanovun İK-ya namizədliyi İctimai Futbol Təşklatları İctimai Birliyinə Futbol Hakimləri Birliyindən verilib.

# Britaniyanın Bakıdakı səfirliyindən viza xəbərdarlığı

**Böyük Britaniyanın Bakıdakı səfirliyi Azərbaycan vətəndaşlarına vizaların verilməsində mümkün yubanmalarla bağlı məlumat yayıb. "Trend"in səfirliyə istinadən verdiyi məlumata görə, İstanbula güclü qar yağması nəticəsində onlarla şəhərə, o cümlədən Bakıya bir sıra reyslər ləğv edilib.**

Buna görə də vizaların əldə edilməsi ilə əlaqədar vizaların verilməsində və ya İstanbula müraciətin göndərilməsində müəyyən yubanmalar yarana bilər.

Azərbaycan vətəndaşlarına vizaların verilməsinə hazırda İstanbulda yerləşən prosessinq mərkəzində baxılır. Səfirlik vizaların verilməsi məsələsi üzrə yenilikləri izləməyi tövsiyə edir.

# Vəzifə istəyən alimlərə yaş həddi qoyulacaq

**Azərbaycanda dövlət elmi müəssisə və təşkilatlarında çalışan elmi işçilərin inzibati vəzifə tutmalarına görə yaş həddi müəyyən ediləcək. Milli Məclisdən "Trend"ə verilən məlumata görə, bu məsələ yeni hazırlanan "Elm haqqında" qanun layihəsində öz əksini tapıb.**

Layihəyə əsasən, həmin yaş həddi dövlət tərəfindən müəyyən ediləcək.

Hazırda Azərbaycanda dövlət elmi müəssisə və təşkilatlarında çalışan elmi işçilərin inzibati vəzifə tutmalarına görə yaş həddi tətbiq edilmir.

Qeyd edək ki, Əmək Məcəlləsinə əsasən, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir. Lakin bu, elmi tədqiqat müəssisələrində çalışanlara şamil edilmir.

# Leyla Yunusun Hüquqlarını Müdafiə Komitəsi onun azadlığa buraxılmasını tələb edir

**Leyla Yunusun və digər siyasi məhbusların hüquqlarını Müdafiə Komitəsi hüquq müdafiəçisinin həbs müddətinin uzadılmasını və ona qarşı digər qanunsuzluqları qətiyyətlə pisləyir. Komitənin bəyanatında L.Yunusun Azərbaycanın vətəndaş cəmiyyətinin inkişafında müstəsna xidmətləri, çoxlu sayda siyasi məhbusun azadlığa çıxmasında əməyinin olması qeyd edilir.**

Xatırladılır ki, Avropa İnsan Hüquqları Məhkəməsi L. Yunusun işinə prioritet qaydada baxmaq haqqında qərar qəbul edib.

Həmçinin bəyanatda L.Yunusun həyat yoldaşı, tanınmış alim və politoloq Arif Yunusun qanunsuz həbsinə toxunulur.

Leyla Yunus 2014-cü il iyulun 30-da həbs olunub. O, dövlətə xəyanətdə və bir sıra iqtisadi cinayətlər törətməkdə ittiham olunur. L.Yunus ittihamları rədd edərək onları siyasi motivli sayır.

«Amnesty İnternational» L.Yunusu "vicdan məhbusu" kimi tanıyıb.

❑ **"Turan"**

# ARDNŞ Bakıda 30 minədək evi sökəcək

**"Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən (ARDNŞ) qanunsuz evlərin sökülməsi ilə bağlı məhkəmələrə minlərlə müraciət olunub".**

Lent.az-ın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında ARDNŞ-in Hüquqi mübahisələr və müqavilələrlə iş şöbəsinin rəisi Comərd Mustafayev deyib. ARDNŞ rəsmisinin sözlərinə görə, qanunsuz evlərin sökülməsi ilə bağlı ən çox Binəqədi rayonu üzrə müraciət edilib: "Binəqədi rayonu üzrə 9392 evin sökülməsi ilə bağlı müraciət var. Hazırda onlardan 4172-si ilə bağlı məhkəmədə qətnamə çıxarılıb. Bundan əlavə, 10 minə yaxın evin sökülməsi ilə bağlı da müraciət olunacaq".

**C.Mustafayev həmçinin Bakı və Bakıətrafı rayonlara görə edilən müraciətlərlə bağlı çıxarılan qətnamələrin statistikanı açıqlayıb:** "Səbayel rayonu üzrə 2 min evin sökülməsi ilə bağlı qətnamə çıxarılıb. Sabunçu rayonu üzrə 6321 evin sökülməsi ilə bağlı müraciət olunub və bunlardan 4500-ə qədər evin sökülməsi ilə bağlı qətnamə çıxarılıb.Xətai rayonu üzrə 444, Nizami rayonu üzrə 179 evlə bağlı müraciət olunub, 141 evlə bağlı qətnamə var. Xəzər və Qaradağ rayonları üzrə 1500-ə yaxın evin sökülməsi ilə bağlı qətnamə çıxarılıb".

ARDNŞ rəsmisi bildirib ki, qətnamə çıxarılan evlərin sökülməsi hələ icra edilməyib.



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Marsda ucuz torpaq sahəsi

**Biz deyəndə ki, Azərbaycan cəhənnəm kimi yerdir, yapçıların acığına gəlir. Yəni cəhənnəm olduqca pis yerdir, Azərbaycanı belə pis yerə oxşatmaq insafsızlıqdır. Bəs cəhənnəm niyə pis yerdir? Ona görə ki, oranın sakinləri sonsuzluğa qədər qır qazanlarında qaynayacaqlar. Orada adam ölüb canını qurtara bilmir.**

Adam qır qazanında bir-iki buğum poqqapoqla qaynadıqdan sonra rəhimdil və bağışlayan Allah yenidən onun üzərinə isfahaca dəri çəkir və adam yenidən qaynayan qır tiyanının içinə yerləşdirilir. Bu, əbədi olaraq belə davam edəcək. Bildiyiniz kimi, adamlar heç vaxt kefindən intihar etmir. Adam gərək Xədicə İsmayılın ölüm həddinə çatdırdığı Tural Mustafayev kimi ölüm həddinə çatdırılsın ki, o da həyatla vidalaşmağa qərar versin. Bizdə dövlət idarələrinin və məmurlarının ölüm həddinə çatdırdığı insanlar Koroğlu körpüsünə çıxıb intihar etmək istəyirlər, lakin çox humanist dövlətçiliyimiz həmin körpünün böyrünə keşikçilər qoyub və heç kəsi intihar etmək üçün bu körpüyə dırmaşmağa qoymurlar. Hərgah kimsə buna cəhd eyləsə, süysününün dalına bir yaxşı dumbuz ilişdirib şöbəyə aparırlar. Yəni hər şey cəhənnəmdəki kimidir, adam istəsə də ölməyə qoymurlar. Belə isə, yapçılar nəyə etiraz edirlər başa düşə bilmirəm.

İndi desəm ki, ölkəmizdə məhkum olunmuşların çox önəmli hissəsi dələduzluq və fırıldaqçılıq yolu ilə başqalarının külli miqdarda pulunu mənimsəyənlərdir və bunun günahkarı da məhz iqtidardır, yapçılar yenə etiraz edəcəklər. Gətirdikləri arqument də bu olacaq ki, YAP-ın dələduzluğu və fırıldaqçılığı təbliğ və təşviq etdiyini görən olubmu? Əslində bu, çox mənasız və vecsiz arqumentdir. Necə ki, mən Azərbaycanı cəhənnəmə bənzədəndə onlar deyirlər ki, göstərin görüm harada qır qazanları qaynayır, əgər bura cəhənnəmdirsə. Nə fərqi var e, qır qazanı olmasın, Koroğlu körpüsü olsun.

İndi iqtidarın ölkədə fırıldaqçılığa və dələduzluğa görə niyə cavabdeh olduğunu deyim. Statistika göstərir ki, dələduzların külli miqdarda pulunu mənimsədikləri adamların böyük əksəriyyəti irili-xırdalı müxtəlif dövlət məmuru vəzifələrinə düzəlmək istəyən vətəndaşlardır. Necə fikirləşirsiniz, həmin fırıldaqçılar adamları onlara Marsda torpaq sahəsi verəcəkləri bəhanəsi ilə və ya Xankəndinə icra başçısı qoyduracağı qılığı ilə aldada bilərdilərmi? Əlbəttə ki, yox. Fırıldaqçılar dillərini nə qədər şirin, vədlərini nə qədər yağlı, andlarını nə qədər inandırıcı etsələr də heç kəsi tələyə sala bilməyəcəkdilər. Çünki təklif olunan şey real deyil. Amma adamlar görəndə ki, tanıdıqları adamlar lazımi miqdarda rüşvət verdikdən sonra çoxdan həsrətində olduğu vəzifənin vəslinə çatırlar və bu yol olduqca real yoldur, onda çox həvəslə fırıldaqçıların toruna düşürlər. Bəs ölkədə belə mühitin yaranmasına kim cavabdehdir. Əlbəttə ki, YAP iqtidarı. Bu ölkədə deputat mandatından tutmuş rayon mərkəzində parkı yüzüncü dəfə abadlaşdırmaq tenderi pulla satılırsa, vəzifəyə düzəlmək üçün fırıldaqçılara pul vermiş adamlar birinci növbədə YAP iqtidarının qurbanlarıdır. Mən İrlandiyanı, Finlandiyanı, Fransanı və s. bu tip ölkələri bir qırağa qoyub, qonşumuz Gürcüstanı götürürəm. Bu ölkədə fırıldaqçıların olmadığını demirəm, amma orada rüşvət müqabilində yağlı vəzifəyə işə düzəlmək fırıldaqçılığı mövcud deyil. Bu fırıldaqçılıq növü üçün gərəkən münbit şəraiti M.Saakaşvili hakimiyyətə gələndən sonra qısa müddət ərzində qazıyıb tarixin zibilliyinə qımçıladı. Əgər indi Gürcüstanda kimsə dediyim fırıldaqçılıq zəminində kimisə tora salmaq istəsə, onun üzünə elə baxarlar ki, sanki Marsda ucuz torpaq sahəsi təklif edir.

Amma bizdə elə olur ki, adamın üzünə sanki Marsda ucuz torpaq sahəsi təklif edilirmiş kimi baxılır. Əgər desəm ki, filankəs filan vəzifəyə bir qəpik vermədən, filan bölgədən olmadan və yuxarıdakılardan heç kimin qohumu olmadan təyin edilib, adamın üzünə lap Marsdan gəlmişin üzünə baxan kimi baxarlar.

# Hakimiyyətlə növbəti görüşdə hansı mövzu müzakirəyə çıxarılacaq?

## "Azadlıq-2015" bloku təklif irəli sürdü

**Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiya sədrlərinin ikinci görüşündə növbəti görüşlərdə müzakirəsi üçün konkret mövzunun əvvəldən təklif və müəyyən edilməsi barədə razılıq əldə olunub. Qeyd edək ki, Əli Həsənovla görüşdə iştirak edən partiyalardan səkkizi eyni blokda- "Azadlıq-2015" seçki blokunda təmsil olunur. Blokun növbəti görüşdə Qarabağ, siyasi məhbuslar, yoxsa seçkilər mövzusundan hansının müzakirəyə çıxarılmasını istədiyini araşdırdıq.**

Blokda təmsil olunan **Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, hər bir görüşdə prioritet mövzu olacaq. Ancaq digər ictimai-siyasi məsələlərə toxunulması da istisna edilmir: "İstər adını çəkdiyiniz vacib mövzular, istər partiyaları maraqlandıran bütün məsələlər prinsip etibarilə qaldırıla bilər. Amma belə bir razılıq var ki, hər görüşdə konkret aparıcı mövzu qoyulsun. "Azadlıq-2015" seçki blokunun Siyasi Şurasının 18 fevralda keçirilən toplantısında Prezident Administrasiyasının təmsilçisi ilə siyasi partiyaların görüşü, görüş ətrafında yaranmış vəziyyət müzakirə edilib. Proses ümumən pozitiv dəyərləndirilib. Habelə prosesin ölkədə siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması və reallaşması ilə bağlı tərəfinin dərinləşdirilməsi məqsədəuyğun sayılmışdır. Toplantıda PA və siyasi partiyalarla növbəti görüşün əsas tematikasının seçki islahatına həsr edilməsi təklifinin rəsmiləşdirilməsi və təklifin təşkilatçılara göndərilməsi barədə qərar qəbul edilib. Bu məsələ ilə əlaqədar prosesdə tərəf olan siyasi partiyaların ayrıca görüşünün keçirilməsi də maraqlı sayılıb və bu istiqamətdə məsləhətləşmələr aparılması faydalı hesab edilib".

**Blokun digər üzvü Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev isə bildirdi ki, növbəti dialoqda onun "Azadlıq-2015" seçki bloku adından danışmaq səlahiyyəti yoxdur:** "Bizim partiya mövqeyimizə gəldikdə, onu deyə bilərəm ki, bir neçə gün əvvəl blok təsisçiləri adından prezidentə, birinci xanıma və başqa bir instansiyaya siyasi məhbus problemi ilə bağlı məktub göndərmişik. Siyasi məhbus mövzusunda müzakirəmiz hörmətli Əli Həsənovla artıq baş tutub. Bizim bu mövzu cari gündəliyimizin bir hissəsidir. Digər 2 mövzu isə aktualdır. İstənilən biri ətrafında dialoq qarşılıqlı faydalı ola bilər".

**Əli Əliyev Milli Şuranın hakimiyyətlə siyasi partiyaların görüşünü siyasi şou adlandırmasına da münasibət bildirdi:** "Milli Şuranın bu mövqeyini bölüşmürəm. Əvvəla, onların mövqe ifadə etmək haqqını tanıdığımı bildirirəm. Hamı, xüsusən də siyasi subyektlər istənilən prosesə münasibət ifadə edə bilər. Hamının eyni cür düşünməsi mümkün deyil. Bəyanata gəldikdə isə, əvvəlki mövqedən bir qədər korrekt fikirlər ifadə edilib. Bundan əvvəl o prosesdə müxalifətin olmadığını deyən tərəf, indi mövqeyinə fərqli baxır. Görüş tərəfləri arasında hamının qeyri-müxalifət olduğunu daha iddia etmirlər. Bu artıq onların pozitiv inkişafıdır. Prosesin özünə verilən qiymətlə qəti razı deyiləm. İctimai etimadın azaldılması üçün göstərilən cəhddir. Öz tərəfimdən deyə bilərəm ki, iqtidar rəsmisi, hörmətli Əli Həsənov ilə əsasən fəal partiyalar arasında keçirilən görüşü yüksək qiymətləndirirəm. Bu son 10-15 ilin ən vacib siyasi təmasıdır. Fikrimcə, tərəflər, ilk növbədə iqtidar siyasi iradə və ardıcıllıq nümayiş etdirsə, demokratiyanın inkişafı baxımından yeni siyasi dövrün iştirakçısı və tərəfi olacağıq.

Kimlərsə hesab edirsə ki, prosesin pərdəarxasını yalnız onlar bilir, dərindən yanılırlar. Bu görüşlər, bütövlükdə proses qarşılıqlı maraqlara xidmət edir, qarşılıqlı münasibətlərin yeni keyfiyyət səviyyəsinə yüksəltmək şansına malikdir. Kimlərinsə özünütəcrid siyasətini bölüşmürük və inkarçılığı məhsuldar siyasi taktika hesab etmirik. Xarici müdaxilənin aləti olmaqdansa, öz vətəndaşlarımızın apardığı prosesdə yer almaq o quruma da, cəmiyyətə də fayda vermiş olardı".

❑ Etibar SEYİDAĞA




# Vahid Mustafayevə ağır itki

**ANS Şirkətlər Qrupunun rəhbəri Vahid Mustafayevin anası Naxış Mustafayeva dünyasını dəyişib. Qeyd edək ki, mərhumə 1940-cı il yanvarın 18-də Şəkidə anadan olmuşdu. Xatırladaq ki, Naxış Mustafayeva həm də Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin anasıdır.**

"Yeni Müsavat" həmkarımıza başsağlığı verir və mərhuməyə Allahdan rəhmət diləyir.



Naxış Mustafayeva

# Şəmsiyyə Bəylərqızının səhhəti pisləşib

**Həbsdə olan yazıçı-publisist, İranın Azərbaycandakı sabiq səfiri Əfşar Süleymaninin həyat yoldaşı olmuş Şəmsiyyə Bəylərqızının səhhəti kəskin pisləşib. Bu haqda müsavat.com-a onun yaxınları məlumat verib. Xəbərdə bildirilir ki, Şəmsiyyə Bəylərqızının onurğa sütununda ciddi problem yaranıb və hazırda normal yerimək imkanlarını itirib: "Faktiki olaraq o yeriyə bilmir, belində yırtıq əmələ gəlib, əsəbləri tamamilə pozulub, ciddi müalicəyə ehtiyacı var. Onun bu problemi həbsxana şəraitində aradan qalxa bilməz. Çünki ağır əməliyyata ehtiyacı var. Biz onun azadlığa buraxılması üçün əfv ərizəsi hazırlayırıq. İnanırıq ki, humanist prezidentimiz növbəti əfv fərmanında onu da azad edəcək. Şəmsiyyə Bəylərqızı həbs olunan gündən körpə övladı da sahibsiz qalıb".**

Qeyd edək ki, Ş.Bəylərqızı keçmiş həyat yoldaşı Ə.Süleymaninin onun mülkünü və pulunu mənimsəməsi iddiası əsasında tutulub. Ş.Bəylərqızı isə bu ittihamları qəbul etmir.



Şəmsiyyə Bəylərqızı

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015

# "Hər şey zamana və havadarlara bağlıdır..."

**Arzu Nağıyev:** "Ermənistanda rejim dəyişikliyi mümkündür, ancaq yaxın vaxtlarda gözlənilmir..."



Arzu Nağıyev

**Ermənistanda başlayan siyasi gərginlik hakimiyyət dəyişikliyinə səbəb ola bilər. Bir sıra ekspertlərə görə, Sərkisyan hökuməti daxildə dayaqlarını ciddi şəkildə itirib. Son olaraq milyarder Sarukyanla onun arasında başlayan qarşılıqlı ittihamlar siyasi sferaya transfer olunub.**

Ancaq Ermənistan müxalifətinin fevralın 20-nə təyin etdiyi aksiya iki gün əvvəl təxirə salınıb. Erməni milyarder Karapetyan Rusiyadan İrəvana gələrək Sərkisyanla Sarukyan danışıqlarda vasitəçilik edib və nəticədə 20 fevral mitinqi təxirə salınıb. Ancaq aksiyanın təxirə salınmasına baxmayaraq bir sıra ekspertlərə görə, Sərkisyana qarşı ciddi müxalifət formalaşıb və bu proses hakimiyyət dəyişikliyinə gətirəcək.

**"Trend" İnformasiya Agentliyinin direktor müavini, politoloq Arzu Nağıyevə** görə, bir sıra səbəblər Ermənistanda siyasi gərginliyin artmasını şərtləndirir. Politoloq bu prosesin Gümrüdəki hadisədən sonra başladığını düşünür: "Birincisi, 102 saylı bazada Permyakov məsələsi baş verəndə Rusiya haqqında kəskin ifadələrin işlənməsi, rusların Ermənistandan qovulması, bazanın bağlanması məsələsi gündəmə gələndə artıq bunun iqtidar-müxalifət qarşıdurmasına gələcəyi və bundan da hakimiyyət dəyişikliyində istifadə ediləcəyi aydın idi. Hətta Rusiya prezidenti öz zəngi ilə bu barədə Sərkisyanı xəbərdar etdi və xalqı sakitləşdirməsə, ciddi fəsadların baş verəcəyini bildirdi".

**İkinci məqam isə A.Nağıyevin fikrincə, Ermənistanda Qarabağ klanı ilə bağlı gərginliyin artması oldu:** ""Rejimsiz 100 il" qeyri-hökumət təşkilatının Dağlıq Qarabağ ərazisində keçirmək istədiyi tədbirin qarşısı ordu və polis qüvvələri tərəfindən çox böyük qəddarlıqla alındı və bunun nəticəsi kimi cəmiyyətdə "qarabağlı" və "qeyri-qarabağlı" məfhumu yarandı. Məlumdur ki, Sərkisyan və onun komandası əslən Qarabağdandır, bu məsələ isə artıq başqalarını qıcıqlandırır. Daha bir məsələ isə "erməni soyqırımı" ilə bağlı yaranmış vəziyyətdir. Məlumdur ki, bu il ermənilərin dünya qarşısında daim ortaya qoymağa çalışdıqları "soyqırım" məsələsidir. Sərkisyan elə düşünürdü ki, Fransa və digər dövlətlərin dəstəyi ilə Türkiyəni bu məsələni tanımağa vadar edəcək və xalq qarşısında götürdüyü öhdəliklərdən biri və ən vacibini yerinə yetirmiş olacaq. Bu da alınmadı, sərhədlər açılmadı, "soyqırım" tanınmadı".

**A.Nağıyevin fikrincə, Qarabağ münaqişəsində də heç bir irəliləyiş əldə olunmaması, münaqişənin uzanması indiki hökumət üçün uğursuzdur. Ekspertin sözlərinə görə, Sərkisyan iqtidarı artıq nə Rusiyanı, nə də Qərbi qane edir:** "Bu məsələlər həll edilməyəcəyi təqdirdə Sərkisyan rejiminin süqutu sürətlənəcək. Hər şey zamana və havadarlara bağlıdır"...

**Hazırkı erməni müxalifətinin imkanlarına gəlincə, ekspertin sözlərinə görə, müvafiq qərar olduqdan sonra Sərkisyanı hakimiyyətdən endirmək üçün Ermənistanda lazımi silahlı və güc qrupları mövcuddur:** "Ermənistanda inqilab edib, hakimiyyəti dəyişmək üçün bu gün ən yaxşı yol maliyyə və silah gücüdür. Sərkisyan rejiminin əleyhinə olan, həm Ermənistanda, həm də ölkə xaricində silahlı və maliyyə vəsaiti olan qüvvələr var. Düşünürəm ki, havadarların dəstəyi ilə bu mümkündür, ancaq yaxın vaxtlarda bunun baş verəcəyi gözlənilmir".

❑ KƏNAN

# Müsavatçı qardaşların məhkəməsi keçirildi

## Fərəc Kərimli dövlət vəkilindən imtina etdi; **Nemət Kərimli:** "Məhbusun istədiyi vəkil gəlmirsə..."




**Fevralın 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində Müsavat başqanının həbsdəki müavini Fərəc Kərimli və onun qardaşı Sirac Kərimlinin məhkəməsi oldu. Kərimli qardaşlarına dəstək olmaq üçün məhkəmə binasının önünə çoxlu sayda insan toplamışdı.**

Prosesə gələnlər arasında Müsavat başqanı Arif Hacılı və partiya rəhbərliyi də var idi. İlk olaraq Sirac Kərimlinin məhkəməsi başladı. Saat 14:00-da başlayan prosesdə Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin əməkdaşı **Qismət adlı şahid** ifadəsi verdi. O, müsavatçı gəncin həbsində əməliyyatçı kimi iştirak etdiyini qeyd etdi: "Bizə bu barədə əvvəlcədən məlumat verilmişdi. Sirac Kərimlini Səbayel rayonu ərazisindəki bir kafedə saxladıq. Əməliyyatda 3 nəfər iştirak edirdi. Mülkü formada idik. Kafenin qarşısında çoxlu sayda insan var idi. Hal şahidlərini də mən tutdum. Sirac Kərimli həbs olunduğu zaman müqavimət göstərmədi. Onun maşınını mən idarəyə gətirdim. Üzərinə baxış keçirildi. Köynəyinin sol döş cibindən sellofana bükülmüş heroin aşkar olunaraq götürüldü. O, narkotik maddənin ona məxsus olmadığını bildirdi. Onunla heç bir şəxsi düşmənçiliyim yoxdur. İstintaq zamanı verdiyim ifadələri təsdiq edirəm".

Daha sonra ardıcıllıqla şahid dövlət ittihamçısı, vəkil və hakimin suallarını cavablandırdı.

Hakim Əhməd Quliyev S.Kərimlinin şəxsi avtomobilinə harada baxış keçirilməsi barədə sual verdi. Əməliyyatçı idarədə baxış keçirildiyini və heç nə aşkar olunmadığını söylədi.

Müdafiə tərəfinin vəkili Nemət Kərimlinin bəzi suallarından isə şahid yayınır, başqa məsələlərdən danışırdı. Bu səbəbdən vəkillə şahid arasında narazılıq yarandı. Sonda hakim müdaxilə etməli oldu.

Sirac Kərimli şahidə heç bir sualının olmadığını qeyd etdi.

**Proses zamanı digər şahid, müsavatçı gəncin həbsinə rəhbərlik etmiş əməliyyatçı Vidadi Məmmədovun məhkəməyə gəlmədiyi məlum oldu. Hakim Əhməd Quliyev buna öz kəskin etirazını bildirdi:** "İndiyə qədər dəfələrlə Vidadi Məmmədovun prosesə gəlməsi üçün ona məlumat vermişik. Amma göründüyü kimi, yenə gəlməyib. Görünür, burada ifadə vermək istəmir. Mən onun növbəti prosesə məcburi şəkildə gətirilməsi barədə qərar qəbul edilməsini təklif edirəm".

Hakimlərin kiçik müşavirəsindən sonra Vidadi Məmmədovun məhkəməyə məcburi gətirilməsi barədə qərar qəbul edildi.

Sonra Ə.Quliyev S.Kərimlinin ifadə verməsini istədi. Lakin müdafiə tərəfinin vəkili Nemət Kərimli şahidlərin ifadələrinin bitməsindən sonra hüquqlarını müdafiə etdiyi şəxsin ifadə verəcəyini məhkəmə heyətinin diqqətinə çatdırdı.

Bu səbəbdən hakim növbəti prosesin fevralın 27-də, saat 16:30-da olacağını elan etdi. Növbəti proses ifadə verməyən sonuncu şahid Vidadi Məmmədovun dindirilməsi ilə davam edəcək.

***

Daha sonra digər zalda Fərəc Kərimlinin məhkəməsi oldu. Proses saat 15:00-a təyin edilsə də, yubadıldı. Bir saatdan sonra başqan müavininin məhkəməsinin fevralın 25-nə təxirə salındığı məlum oldu. Səbəb kimi Fərəc Kərimlinin dövlət vəkilindən imtina etməsi göstərildi.

**Həbs edildiyi gündən indiyə qədər F.Kərimlinin hüquqlarını müdafiə etmiş vəkil Nemət Kərimli prosesdə iştirak etməməsi ilə bağlı musavat.com-a bunları dedi:** "Ümumi qaydalara əsasən, hər bir mərhələdə vəkil təqsirləndirilən şəxslə müqavilə bağlayır, order götürür. İbtidai istintaq zamanı orderim olmuşdu. Lakin iş məhkəməyə getdi. Prosesin təyin olunduğu gündən faktiki olaraq, xəbərim olmadı. Məhkəmə günü günorta saatlarında məlumat verdilər. Qanunvericiliyə əsasən, məhbusun istədiyi vəkil gəlmirsə, dövlət tərəfindən vəkil təyin olunur. Fərəc Kərimli də dövlət vəkilindən imtina edib. Ona görə də təxirə salındı. Növbəti prosesə kimi order götürüb məhkəməyə çıxacam".



Xatırladaq ki, Fərəc Kərimli 2014-cü il iyulun 23-də həbs edilib. Bundan bir neçə gün qabaq - iyulun 17-də isə onun qardaşı Sirac Kərimli tutulub.

Hər iki qardaş Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, gəzdirmə) maddəsinə əsasən ittiham edilir. Maddə üzrə qardaşları 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Fərəc və Sirac qardaşlarının müdafiəçiləri həbsləri siyasi motivlərlə bağlayır. Kərimli qardaşlarını nüfuzlu yerli və beynəlxalq təşkilatlar "vicdan məhbusu" kimi tanıyırlar.

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

# İslam dinində titullar

Şeyxlər, müftilər, qazılar, axundlar, imamlar sadə müsəlmanlardan üstün zümrə sayılmır...

**Son günlər Yerin fırlanması ilə bağlı ərəb din adamının - şeyxin iddiası ilə başlayan mübahisələrə şahid oluruq. Deməli olar ki, əksər yazarlar bu mövzuya münasibət bildirib və qəribə də olsa, Yerin fırlanmadığını iddia edən ərəb şeyxini müdafiə edənlər də tapılıb.**

Ancaq mövzumuz bu deyil. Necə deyərlər, hər kəs nəyəsə inanmaqda sərbəstdir. Amma məsələ burasındadır ki, "şeyx" titulu ilə qeyd olunan ərəb din adamının bu iddiası yenə də İslamın ayağına yazıldı. Əcəba, İslamda din xadimi anlayışı varmı?

Ondan başlayaq ki, İslam dinində xüsusi ruhani, din xadimi zümrəsi yoxdur. Qurani-Kərim insanların dərəcəsini yalnız imanına görə bölür. "Şübhəsiz, Allahın dərgahında sizlərdən ən dəyərli olanı təqvası daha çox olan kəsdir" ("Hücurat" surəsi, 13). İslama görə, bəndə ilə Allah arasında vasitəçi yoxdur. Bəndə birbaşa dua və ibadətlərlə Allaha üz tutur, bəndəlik vəzifələrini yerinə yetirir, dua və istəklərini bildirir. Peyğəmbərlər, imamlar, övliyalar, şəhidlər kimi Allaha daha yaxın bəndələr digər insanlar üçün dua edə, onlara təvəssül edilə bilir. Lakin bütövlükdə dində vasitəçi şəxslər, xristianlıqda olduğu kimi din xadimləri anlayışı mövcud deyil. İslam hər kəsin öyrənib başa düşəcəyi və yaşayacağı bir dindir.

"Şeyx" kəlməsi ərəbcədə yaşlı, ağsaqqal, hörmətli şəxs mənasını verir. İslamın ilk illərində bəzi yaşlı səhabələr barəsində şeyx ifadəsi işlədilib. Sonrakı dövrdə şeyxlər həm də İslam dini ilə bağlı məsələlərdə fətva verən şəxslərə deyilib. Osmanlı dönəmində isə dövlətin dini işlərinə rəhbərlik edən və fətva verən əsas şəxs olaraq Şeyxülislam titulu meydana gəlib. Sultan Süleyman zamanında Şeyxülislam vəzifəsi rəsmi bir vəzifəyə çevrilib və Əbusuud Əfəndinin hazırladığı qanuna əsasən, ali dini vəzifəyə çevrilib.

1574-cü ildən etibarən isə şeyxülislamlar bütövlükdə Osmanlı dini bürokratiyasının rəsmi rəhbəri hesab olunmağa başlayıb. Bütün qazılər, müftilər və müdərrislər Şeyxülislama tabe etdirilib. Şeyxülislamlar birbaşa Sultan tərəfindən təyin olunurdu. Şeyxülislam təyinatı xüsusi bir mərasimlə həyata keçirilir və birbaşa Sultan özü seçdiyi şəxsə vəzifəni təklif edir, qəbul etdiyi təqdirdə, qəbul etdikdən sonra isə yeni Şeyxülislama Fərvai Bəyza adlanan kürk geyindirilirmiş. Şeyxülislamın əsas vəzifəsi dini mövzularla bağlı fətva vermək olub. İslam dini ilə bağlı müxtəlif mövzularda irəli gələn suallara və məsələlərə Osmanlı dövləti sərhədləri daxilində dini hökmləri məhz şeyxülislamlar verib. Şeyxülislamlar mütləq yüksək dini təhsilə malik olmalı imiş.

1826-cı ildə Osmanlı sultanlarının əsas dayağı olan Yeniçəri ordusu ləğv edildikdən sonra yeniçərilərə məxsus binalardan biri Şeyxülislama iqamət olaraq verilir. 1920-ci ildə Osmanlı dövləti süqut etdikdən sonra Şeyxülislam postu Şəriyyə və Əvqaf Vəkaləti adı ilə nazirliyə çevrilir. 1924-cü ildə isə Şeyxülislamlıq tamamilə ləğv olunur və dünyəvi dövlət üçün yeni qurum Dəyanət İşlər Başqanlığı yaradılır.

Şeyxülislam titulunun istifadə olunduğu ölkələrdən biri də Azərbaycandır. 1823-cü ildə Azərbaycan ərazisi Rusiya tərəfindən işğal edildikdən sonra yerli müsəlman əhalinin dini işlərinə rəhbərlik etmək üçün Çar Rusiyası 1823-cü ildə Şeyxülislam vəzifəsini təsis edir. 1920-ci ildə Şeyxülislamlıq ləğv olunsa da, 1944-cü ildə Sovet hakimiyyəti Hitler ordusuna qarşı müsəlmanları səfərbər etmək üçün Şeyxülislamlığı yenidən bərpa edir. Qafqazın bu günə qədər 12 Şeyxülislamı olub.

Qeyd edək ki, müxtəlif adlarda olsa da, müsəlman ölkələrində, eləcə də müsəlman olmayan ölkələrdə müsəlman icmalarının dini rəhbərləri olub. Bu bölgü hətta məzhəblərə görə də dəyişib. Ancaq bütün bu cür titullar, vəzifələr həmin şəxslərin sadə müsəlmanlardan üstünlüyü hesab olunmayıb. Doğrudur, müəyyən mənada İslam rəvayətlərində daha çox bilən, daha çox əməl edən şəxslərin daha çox hörmətə layiq olması ilə bağlı göstərişlər olsa da, İslam dinin əsas sütunu olan Quran müsəlmanların yalnız daha çox Allahdan qorxan, təqvalı, o cümlədən insanlara qarşı xeyirxah olanlara üstünlük tanıyıb.

İslam elm və təfəkkür dinidir. İnsanların hər birinin dini öyrənərək müsəlman kimi dini vəzifələrini yerinə yetirmək kimi azadlığı var. Dini daha çox bilən və ya din elmlərində dərin təhsil alan şəxslər isə xüsusi statusu olan zümrə sayılmır.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015

# Elnurun Türkiyədəki qələbəsi Azərbaycanı coşdurdu

**Flora Kərimova:** "Elnurun o səhnədən səsi gələndə, meydan oxuyanda təəccüb etdilər ki, bıy, bu bizimkidir"

**Gövhər Həsənzadə:** "Onun sənət anası olaraq çox istərdim ki, yanımda olsun, ən böyük uğurunu burda qazansın"



**Azərbaycanı 2008-ci ildə "Eurovision" mahnı yarışmasında ilk təmsil edənlərdən Elnur Hüseynov "O səs Türkiyə"nin qalibi oldu. Qalibiyyət xəbəri ötən gecədən başlayaraq mətbuatın, medianın, sosial şəbəkələrin əsas mövzusuna çevrildi. Məlumat üçün bildirək ki, Ebru Gündeşin komandasında yarışan həmyerlimiz ilk olaraq "O Sole Mio" opera parçasını səsləndirib. Daha sonra isə Sertab Erenerin "Aşk" mahnısını ifa edib. Xatırladaq ki, Elnur adıçəkilən mahnını ilk mərhələdə oxumuşdu.**

İlk səsvermədən sonra Elnur qalib "üçlük"də qalıb. İfaçı bu dəfə ilk seçim turunda ifa etdiyi "Lutch" (Sem Smit) mahnısını bir daha oxuyub.

Növbəti səsvermədə azərbaycanlı iştirakçı son ikiliyə qalaraq qalib olmaq üçün yarışmaya davam edib və nəhayət, finalda "O səs Türkiyə"nin 4-cü mövsümündə birinci adını qazanıb.

Elnurun qələbəsi təkcə ölkəmizdə deyil, Türkiyədə də böyük ajiotaj yaratdı. Qalibi tanınmış həmkarları sosial şəbəkədə təbrik edib, ona inandıqlarını yazıblar.

**Türkiyənin böyük səhnəsində qalibiyyət qazanan həmyerlimiz barəsində "Yeni Müsavat"ın əməkdaşına danışan xalq artisti Flora Kərimova göz yaşlarını saxlaya bilməyib:** "Elnur bizə bəxş olunan istedadlı dəyərimizdir. Bu cür gəncləri dəyərləndirməyi bacarmalıyıq. Zamanında möhtəşəm səsləri olan Elnurla Samiri unutduq. Niyə bu cür gənclərin itib-batmasına göz yumuruq? Niyə o cür performans, o aktyorluq yaddan çıxdı? Elnur niyə getməli idi başqa ölkəyə, başqa səhnədə çıxış etməli idi? Ayıb olsun ki, biz bunu öz Azərbaycanımızda etmədik. Təsəvvür edirəm ki, Elnur o səhnədə uğur qazanmaq üçün hansı maddi və mənəvi əziyyətlər çəkib. Bəyəm asandır o cür səhnədə qalib gəlmək? Elnurun o səhnədən səsi gələndə, meydan oxuyanda təəccüb etdilər ki, bıy, bu bizimkidir və başladılar onu tərifləməyə. Utanmırıq biz? Səviyyəsi, daxili, mədəniyyəti olmayan bir kəsi qaldırıb dağ başına çıxardırlar və zorla da olsa onu tamaşaçılara qəbul etdirirlər. Biz axı niyə belə koruq?! Mən çox təəssüf edirəm ki, bizim insanlar həmişə sənəti olanlara basqı edir. Bizimkilər ömründə heç vaxt istəməz ki, kimsə qabağa keçsin. Bəlalərinin təbiətinə çox təəccüb edirəm. Nə vaxt bu xasiyyətimizə tövbə edəcəyik?.."

**Flora Kərimova Elnurun səsini "qışqırıq" adlandıranlara belə cavab verdi:** "Hər kəsə məlumdur ki, Elnuru bu gün nə qədər qaralayan var. Sual verirəm o kəslərə - Elnur kimin cibinə girdi, kimin çörəyini kəsdi, kimi varından yoxundan etdi, o, kimə mane olur? Niyə bizə düşən alqışları biz ona etməməliyik? (ağlayır). Bəsdirin, bəd əməllərinizdən əl çəkin! Niyə biz barmağımızı silkələyirik, amma əlimizi uzadıb qalibiyyəti alqışlaya bilmirik? Bu gün cavanlarımızı qoruxda bilirik, amma onların bu cür qazancını görməzdən gəlirik. Hamımız ona dəstək olmalıyıq".

**Xalq artisti Elnurun səsini "fövqəladə səs" adlandırdı:** "Elnur başdan-ayağa istedaddır. Bunu qəbul etməyənlərin təbii ki, musiqi anlayışı yoxdur. Biz gərək gözə girən qonşularımızdan dərs götürək. O mənfur qonşular bizim mahnımıza, yeməyimizə, bir sözlə, incəsənətimizə sahiblənəndə niyə hay çəkmirik? Niyə bağırmırıq?!"

## "Dünyada bir azərbaycanlının qapısı açıldı sənət aləmində..."

**2008-ci ildə "Eurovision" mahnı müsabiqəsi üçün Elnurla birgə çalışan tanınmış bəstəkar Gövhər Həsənzadə həmyerlimizin qalib olacağını gözləmədiyini bildirdi:** "Böyük qürur hissi keçirtdim. Mən doğrudur, birinci yeri gözləmirdim, hardasa üçüncü yeri fikirləşirdim. Elnur və Samirin haqlarının sübutu üçün o qədər əziyyət çəkmişəm ki, düşündüm ki, bu uşaq yəqin orda da hardasa haqsızlığa uğraya bilər. Fikirləşirdim ki, birinci yeri ona verməzlər. Bu, səsvermə idi, yəni sms-lə olan bir yarışma idi, heç kim nəyisə sonradan sübut edə bilməzdi. Onun birinci yerə çıxmasının şahidi olanda üstümdən sanki böyük bir yük götürüldü. Və o zaman öz-özümə dedim - axır ki, Elnur doğrudan da layiq olduğu o alqışı, təmtərağı əldə etdi, layiq olduğu sevgini, ilgini gördü. Mənim 7 ildə etdiklərimi sübuta yetirirmiş kimi Elnur öz möhürünü vurdu. Yəni mənim dediklərim, tərif, özünüsübut, təsdiqləmək kimi deyil, həqiqət imiş. Dünyada bir azərbaycanlının qapısı açıldı sənət aləmində. Çox sevinirəm ki, Allah bu qapını Elnur üçün açdı.

Onun Türkiyədəki uğurunu öz adımla bağlaya bilmərəm. Çünki özü ora gedib və özünü təsdiq edib. Bu yolu o, öz qəlbinin səsini dinləyərək seçib. Bildirim ki, Elnur çıxdığı səhnədə öz ifasına heç nə əlavə etmədi. Sadəcə, 2008-ci ildə etdiyi çıxışını davam etdirdi. Və ağıllı insanlar gələcəkdə Elnurun onlara nə verə biləcəyini hesablayaraq komandalarında üzv etdilər. Bu gün Elnurla iş görmək üçün başqa şirkətlərlə kontrakt bağlayıb layihələrimizi həyata keçirəcəyik, bax, bu məsələ məni çox kövrəldir, çünki həmin Elnurdur. Həmin Elnurdur ki, 2008-ci ildə Azərbaycanı bundan da böyük səhnədə layiqli təmsil etmişdi. 7 ildən sonra isə bunu sübut etmək üçün başqa ölkənin səhnəsi lazım oldu. Onun sənət anası kimi bildirirəm ki, Elnurun yanımızda olmasını çox istərdim. O sevgini burda yaşasın. Kaş ki, bu alqışlar, sevgi və ilgi o zaman olaydı..."

**Bəstəkar estradamızın Samir və Elnur kimi istedadlı ifaçılara böyük ehtiyacı olduğunu dedi:** "Samir və Elnur çox istedadlı insanlardır. Dünyaya çıxmaq üçün bu ifaçılar bizə mütləq lazımdır. Onlar bir zamanlar dünyaya çıxdılar və reaksiyanı da gördük. Bu illər ərzində mənim bu barədə dediklərimə, görünür, bir kimsə əhəmiyyət vermirdi..."

**Türkiyəli müğənni Ebru Gündeşin Elnurun qalibiyyəti ilə bağlı sosial şəbəkədə paylaşdığı statusa xoşagəlməz şərhlər yazılıb. Türkiyədə yaşayan azərbaycanlı model Günay Musayeva olanlara hiddətini bildirib:**

""O səs Türkiyə"nin çempionu Elnurdur və bizdən xoşbəxt gecə selfisi... Bütün Türkiyə xalqına, həmçinin onu dəstəkləyən hər kəsə çox təşəkkür edirəm. Sizin dəstəyinizlə bu gecə Elnur birinci oldu. Ötən gün mənim doğum günüm idi. Elnur, bu gecə ən böyük hədiyyəni, nadir səsinə sən verdin mənə. Elnur, yolun açıq olsun! "Necə oldu azərbaycanlı birinci oldu" yazanların diqqətinə çatdırım ki, biz hamımız türk millətiyik və qardaşıq. Bu insan da öz səsi və bacarığı ilə birinciliyi qazandı. Təbrik edin. Əgər bu içinizdən gəlmirsə, etməyin və lazımsız şərhləri içinizdə saxlamağı öyrənin".




**Xatırladaq ki, xalq artisti Azər Zeynalov ifaçı haqda "Yeni Müsavat" a bildirmişdi ki, Elnurun mikst səs diapazonuna nadir hallarda rast gəlinir:**

"Elnurun çox gözəl səhnə mədəniyyəti, qəlbi fəth edən səs tembri, geniş səs diapazonu var. Bu cür diapazonlu ifaçı çox az hallarda olur".

Elnur Hüseynov 1987-ci ildə Aşqabadda hərbçi ailəsində doğulub. Anası isə musiqi nəzəriyyəçisidir. Hələ beş yaşı olarkən konservatoriya yanında istedadlı uşaqlar üçün ROXMİM-ə daxil olaraq forte-piano sinfində təhsil alır. O, 1999-cu ildə Bakıya gələrək Tibb Məktəbinin diş texniki ixtisasına qəbul olunur. Lakin bir ildən sonra təhsilini yarımçıq qoyaraq yaradıcılığının arxasınca gedir. Beləliklə, Asəf Zeynallı adına musiqi məktəbinə üz tutur. Təhsil aldığı müddətdə istedadı sayəsində Azərbaycan Dövlət Opera və Balet Teatrında, Azərbaycan Dövlət Filarmoniyasında çalışır. O, stilist-bərbər peşəsini də öyrənir.

2003-cü ildə Lider TV telekanalında yeni musiqi layihəsi olan "Sing Your Song" yarışması reallaşır. Elnur Hüseynov bu yarışmada ən yüksək pilləni qazanaraq Qran-Pri mükafatına layiq görülür. Bu hadisə gənc ifaçının yaradıcılığında gələcək uğurlara təkan verir. İfaçı ölkəmizin professional, tanınmış vokalistlərindən olan Sevda Məmmədova, Fidan Hacıyevadan dərslər alır. Qarşıdakı illərdə "Prestij" qrupu ilə birlikdə Eldar Mansurov tərəfindən yazılmış "Bəsdir" mahnısını yazdıraraq klip çəkdirir.

2008-ci ildə Azərbaycan ilk dəfə olaraq "Eurovision" mahnı müsabiqəsində iştirak edir. Təmsilçiləri Samir Cavadzadə və Elnur Hüseynov olur. Onlar duet şəklində "Day After Day" mahnısını oxuyurlar. Təmsilçilərimizi 132 balla 8-ci olurlar.

O, 2014-cü ildən Türkiyənin "TV 8" kanalında nümayiş olunan "O ses Türkiye" layihəsinə qatılıb. Ötən gün isə yarışmanın birincisi olub.

❑ **Xalidə GƏRAY**

# Bu gün Lamiyə Quliyevanın məhkəməsidir

## Aslanovun ətrafında həlqə daralır



**"Lamiyə işi"ndə əsas fiqurant Aslan Aslanovun həbsi prosesinə ciddi hazırlıq gedir. Redaksiyamıza daxil olan məlumata görə, prosesin ləng getməsi sabiq nazir müavininin hakimiyyətdəki dayaqlarının dəstəyinin nəticəsidir. Qaynağımız qeyd edir ki, A.Aslanovun əsas himayəçisi oğlunun kirvəsidir: "Aslanovun öldürülən oğlunun kirvəsi, hamının bildiyi kimi, sabiq müdafiə naziri Səfər Əbiyev olub. Digər övladının kirvəsi isə hazırda yüksək vəzifəli şəxsdir. Bu işin araşdırılmasının qarşısını almağa cəhd edir".**

Bununla belə, A.Aslanovun Bakının "milyonçular məhəlləsi" adlanan Teymur Əliyev küçəsindəki mülkündə, şəhərin digər ərazilərindəki villa və bağ evlərində qeyri-rəsmi siyahıya alınma prosesi həyata keçirilir. Sabiq nazir müavininin həbsindən sonra siyahıya alınmış əmlakları "milli"ləşdiriləcək. A.Aslanovun özü də ciddi nəzarət altında saxlanır. Xəbər verdiyimiz kimi, onun ölkədən çıxışına da qeyri-rəsmi qadağa qoyulub. Əgər Aslanov ölkəni leqal yolla tərk etmək istəsə, geri qaytarılacaq.

### Aslanov oğlunu işə qatdı, vəkil iddiaların təsdiqlənmiş olduğunu açıqladı

A.Aslanovun hazırda ömürlük həbsdə olan Vüqar Əliyevin vəkili Adəm Məmmədovu cəzalandırmaq istəyində olması haqda məlumat verməşdik. Əldə etdiyimiz son məlumata görə, A.Aslanovun vəkilin cəzalandırılması üçün Vəkillər Kollegiyasına müraciətini onun oğlu, Ədliyyə Nazirliyinin İstintaq şöbəsinin müstəntiqi Turqay Aslanov çatdırıb. A.Məmmədov hesab edir ki, A.Aslanov oğlunu işə qatmaqla bir həqiqəti təsdiqləmiş olub: "Lamiyə Quliyeva, Vüqar Əliyev Ədliyyə Nazirliyinin tabeliyində olan cəzaçəkmə müəssisələrində cəza çəkirlər. Onlar dəfələrlə bəyan ediblər ki, üzləşdikləri haqsızlıqlar, qanunsuzluqlar Aslan Aslanovun diktəsi ilə həyata keçirilib. Həmçinin bu işlərdə Turqay Aslanovun da adı hallandırılıb. Bu məlumatlar olmasaydı belə, Turqay Aslanovun orada işləməsi qanunauyğun deyil. Çünki hazırkı vəzifəsi ona yaxınının öldürülməsində ittiham edilərək cəzaya məhkum edilmiş şəxslərə qarşı addımlar ata bilməsi ehtimalını yaradır. Digər tərəfdən də Turqay Aslanovun barəmdə atasının əsassız müraciətini Vəkillər Kollegiyasına çatdırması onun barəsində olan iddia və ittihamları təsdiqləyir. Deməli, Turqay Aslanov atasının istəyi, xahişi ilə digər addımlar da ata bilər".

**Cəmiyyətə məhkum Lamiyə Quliyevanın uşağının atası kimi təqdim edilən Elnur Məmmədrəsul oğlu Rəsulov ailəsi ilə danışıb. Azvision.az-ın yaydığı məlumata görə, E.Rəsulovun qohumları sayt əməkdaşına bildiriblər ki, Lamiyə Quliyeva ona şər atır:** "Artıq Elnurun ailəsi də hər şeyi bilir. Onların ailəsində narazılıq baş verib. Onlar Elnurun yanına getmirlər. Elnur isə bu xəbərlərin yalan olduğunu söyləyir. Elnurun anası deyir ki, başqa bir qadından uşağı yoxdur, Lamiyə adlı qadın onun üstünə şər atır".

Elnurun həbs səbəblərini öyrənmək məqsədilə Bakı Hərbi Məhkəməsi ilə əlaqə saxladıq. Bildirildi ki, E.Rəsulov hərbçilərlə əlbir olaraq saxta pul hazırladığı üçün həbs edilib.

E.Rəsulovun vəkili Ümman Salehzadə isə baş verənlərdən xəbərsiz olduğunu deyib. Müvəkkili ilə görüşmədiyini, hazırkı vəziyyətindən xəbərsiz olduğunu qeyd edib.

Fevralın 20-də Bakı Apelyasiya Məhkəməsində hakim Qədim Babayevin sədrliyi ilə məhkum Lamiyə Quliyevanın işi üzrə məhkəmə prosesi keçiriləcək. Saat 12:30-a təyin edilən proses açıq elan olunub. Baş Prokurorluq məhkum Lamiyə Quliyevanın 2010-cu ildə Cinayət Məcəlləsinin 317.2-ci maddəsi ilə olan məhkəmə hökmünün ağırlığına görə apelyasiya protesti və müddətinin bərpa olunması üçün vəsatət verib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015


Elmar Məmmədyarov

# Məmmədyarov Zəlimxan Məmmədlinin məsələsini qaldıracaqmı?

## Azərbaycan XİN: "Bununla əlaqədar Gürcüstan tərəfi ilə müxtəlif səviyyələrdə təmas davam etdirilir"


Zəlimxan Məmmədli

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov rəhbərlik etdiyi nümayəndə heyətinin müşayiəti ilə Gürcüstana rəsmi səfər edib. XİN mətbuat xidmətindən verilən məlumata görə, səfər çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarovun Gürcüstanın yüksək rəsmi şəxsləri ilə görüşləri nəzərdə tutulub.**

Maraqlıdır, nazir Gürcüstan səfərində "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli və onun müavini Salman Murğuzovun məlum olmayan səbəblərə görə 19 oktyabr 2014-cü ildən Gürcüstana girişinə qadağa qoyulması məsələsini qaldıracaqmı? Qeyd edək ki, Azərbaycan XİN bununla bağlı Tiflisə nota verib və Milli Məclisdə də məsələ müzakirəyə çıxarılıb, rəsmi Bakının məsələyə ciddi reaksiya verməsi tələb olunub.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** "Yeni Müsavat"a bu barədə dedi ki, bundan əvvəl nazirin Gürcüstan tərəfinə müraciəti olmuşdu: "XİN-in Gürcüstandakı səfirliyinə belə bir müraciət olmuşdu, konsulluq münasibətləri kontekstində bu məsələyə baxılması xahiş edilmişdi. Amma bu kimi məsələlərdə Azərbaycan digər ölkələrin qanunvericiliyinə hörmət prinsipi ilə çıxış edir, heç bir ölkənin daxili işlərinə qarışmır və hər bir ölkənin sərhəd-keçid məsələlərini tənzimləməsinə dair öz qanunvericiliyi var. Nazirin səfəri rəsmi xarakter daşıyır. Azərbaycan və Gürcüstan arasındakı dostluq və tərəfdaşlıq münasibətlərinin bütün spektrləri üzrə müzakirələr aparılacaq, gələcək inkişaf istiqamətləri də müzakirə ediləcək. Bu çərçivədə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılacaq".

**H.Hacıyev dedi ki, "Borçalı" Cəmiyyətinin rəhbərliyinin Gürcüstana girişinin qadağan olunmasının səbəbi məlum deyil:** "Bununla əlaqədar Gürcüstan tərəfi ilə müxtəlif səviyyələrdə təmas davam etdirilir. Azərbaycan Respublikasında da "arzuolunmaz şəxslər"in sihayısı var". Biz bu məsələyə "haqlı və ya haqsız" kontekstindən yanaşmırıq. Sadəcə olaraq, konsulluq münasibətləri çərçivəsində Gürcüstan tərəfinə müraciət edilib və baxılır. Müzakirələr hələ davam etdirilir. Hər ölkənin qanunvericiliyi var, ümid edirik ki, bu kontekstdə məsələyə baxılacaq".

Gürcüstanda fəaliyyət göstərən bir sıra nüfuzlu QHT rəhbərləri, millət vəkilləri, media kapitanları və ziyalılar bu problemlə bağlı Gürcüstan prezidenti, baş naziri və parlament sədrinə müraciət ünvanlayıblar.

❑ **Cavid TURAN**

# Müdafiə nazirimizin fəaliyyəti ilə bağlı sensasion detallar



# Zakir Həsənov müharibə hazırlıqları içərisində

## Azərbaycan ordusu hər an başlaya biləcək döyüş hazırlıqlarını artırır; nazir həftəiçi 5 gün ön cəbhədəki hərbi hissələrə baş çəkir; beynəlxalq şərtlər Azərbaycanın lehinədir və Rusiyanın da Ermənistanın cığallığına sonadək dözmək fikri yoxdur...

**Dünyanın diqqəti Ukraynada müharibənin dayandırılmasına və bu ölkənin ərazi bütövlüyünün bərpasına yönəldiyi bir vaxtda, Azərbaycan ordusu da hərbi qüdrətini artırmaqdadır. Ukrayna hadisələri bir daha göstərdi ki, bütün mənəvi və maddi dəstəyə baxmayaraq, ərazi bütövlüyü üçün ilk növbədə ciddi intizamlı ordu lazımdır. Xüsusilə də son vaxtlar savaşın hər an başlaya biləcəyi barədə xəbərlərin ardınca ordumuzun irimiqyaslı hərbi təlimlərə başlaması təsadüf kimi dəyərləndirilmir.**

Ordumuzun son aylar keçirdiyi irimiqyaslı hərbi təlimlər Azərbaycanın müharibə hazırlıqları içərisində olduğunu göstərir. Azərbaycanın münaqişənin sülh yolu ilə həlli üçün etdiyi cəhdlər hələ ki nəticəsizdir. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, Azərbaycan ərazilərinin işğalının "dondurulmuş münaqişə"("staus-kvo") adı altında davam etməsi ilə barışmayacaq.

Son olaraq fevral ayının 2-də başlayan təlimlərdə 15 min nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri, o cümlədən ehtiyatda olan 5.000 nəfərədək hərbi vəzifəli cəlb edilib.

Qeyd edək ki, bundan əvvəl ordumuz Naxçıvan Muxtar Respublikası ərazisində də genişmiqyaslı hərbi təlimlər keçirmişdi. Müdafiə Nazirliyinin rəhbərliyinin iştirakı ilə keçirilən təlimlərə Əlahiddə Ümumqoşun Ordusunun tərkibindəki hissə və bölmələrin şəxsi heyəti, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunlarının qüvvə və vasitələri, o cümlədən yeni, ən müasir standartlara uyğun zirehli texnika cəlb olunmuşdu.

Razılaşaq ki, iki il əvvələdək - Səfər Əbiyevin nazir olduğu zaman bu cür irimiqyaslı hərbi təlimlərin keçirilməsi əsl sensasiya ola bilərdi...

Məlumatlara görə, 2013-cü ilin oktyabr ayında müdafiə naziri təyin edilən general-polkovnik Zakir Həsənov qısa bir müddətdə orduda döyüş hazırlığını yüksəldib, özü şəxsən həftənin beş günü ordumuzun döyüş mövqelərində əsgər və komandirlərlə görüşür.

Daha bir diqqətçəkən fakt Z.Həsənovun Müdafiə Nazirliyində S.Əbiyevin dövründə pis miras kimi qalan "gizli qrupların" fəaliyyətinə son qoyması ilə bağlı xəbərlərdir. Müdafiə Nazirliyinə yaxın olan bir mənbəmiz deyib ki, yeni nazir bütün orduda komandanlığı arasında səmimi münasibət yarada və general heyətini tam özünün nəzarətinə ala bilib. Məlumdur ki, S.Əbiyevin nazir olduğu dövrdə Müdafiə Nazirliyinin rəhbərliyi arasında ciddi mövqe dartışmaları vardı ki, bu da silahlı qüvvələrimiz haqqında mənfi rəy yaradırdı. Yalnız bir faktı qeyd edək ki, S.Əbiyevin ara-sıra ordu birləşmələrinə baş çəkməsi zamanı



Baş Qərargah rəisi Nəcməddin Sadıqovla bir yerdə görünməsi də əsl hadisə ola bilərdi. İndi isə müdafiə naziri bu stereotipi qıra bilib və hər bir səfərində Baş Qərargah rəisi onu müşayiət edir. Xəbərlərdə o da vurğulanır ki, nazirin generalitetə münasibətini dəyişməsi təkcə onun orduda nizam-intizam yaratmaq istəyindən irəli gəlmir, bu, həm də prezidentin Z.Həsənova verdiyi səlahiyyətlərlə bağlı məsələdir. Keçmiş nazirin dövründə ön cəbhədə komandirlər əsgərlə "bir partonun" hesabatını aparırdısa, indi nazir özü açıq şəkildə düşmənə layiqli cavab vermək üçün ən ağır silahlardan belə istifadəyə çağırış edir. Bu, əlbəttə ki, vəzifə görəvi aldıqdan sonra məhz Ali Baş Komandanın düşmənə layiqli cavab vermək üçün nazirə verdiyi əmrdir.

Z.Həsənovla bağlı daha bir detal haqda da yazaq. Mənbəmiz bildirir ki, nazir ön cəbhədəki postlara baş çəkərkən əsgərlərlə hərbi salamlaşmadan sonra əksər vaxt onları bağrına basaraq öpür. Əsgərlərə moral verən çıxışlar edir, onların ailələrinin, özlərinin problemləri ilə maraqlanır.

Başqa bir məlumata görə isə hərbi hissələrdə olarkən müdafiə naziri naharı əsgərlərlə birlikdə edir. Mənbə bildirir ki, bu, çəkiliş olmayanda da belədir. Z.Həsənov onun üçün xüsusi təşkil olunan, hazırlanan süfrələrdən imtina edir.

Nazirin hərbi hissələrə gözlənilməz səfərləri haqda da məlumat almışıq. Mənbəmiz bildirir ki, Z.Həsənov hansısa hərbi hissəyə gedərkən tez-tez yolüstü başqa bir hərbi hissəyə də baş çəkib orda qəfil yoxlama aparır, duruma şəxsən nəzarət edir. **"Onu Müdafiə Nazirliyində kabinetində yalnız şənbə-bazar günləri görmək mümkün"** - deyə mənbəmiz bildirir.

Həm Naxçıvanda, həm cəbhə bölgəsində irimiqyaslı hərbi təlimlərlə yanaşı Azərbaycan regionda yeganə hərbi müttəfiqi olan Türkiyə ilə hərbi sferada da ciddi işbirliyi davam etdirməkdədir. Ötən ilin sonlarına yaxın, konkret desək, sentyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərinin Türkiyə ordusunun hərbi hissələrinin cəlb olunduğu irimiqyaslı əməliyyat-taktiki təlimləri keçirilməsi düşmənin gözünü qorxutmuşdu. İki ölkə arasında rəsmi əməkdaşlıq sənədləri ilə baş tutan hərbi təlimlərdən sonra xüsusilə Naxçıvan Muxtar Respublikasında Türkiyə ordusunun təlimçi zabit heyətinin işi nəzərəçarpacaq dərəcədə artıb. Bu, təkcə Türkiyənin PKK ilə mübarizədə dağçı döyüş təcrübəsinin öyrədilməsi deyil, həm də NATO-nun qüdrətli ordularından biri ilə inteqrasiyadır. Yeri gəlmişkən, bu əməkdaşlığın inkişafında Naxçıvan ordu birləşməsinin komandanı general Kərəm Mustafayevin də ciddi rolu olduğu deyilir...

Azərbaycanın 2015-ci ildə Ermənistanla hərbi ritorikanı sərtləşdirəcəyini dövlət büdcəsində hərbi xərclər üçün ayrılan vəsait də göstərirdi. Xatırladaq ki, bu il Azərbaycanın hərbi xərcləri 3 milyard 783 milyon manat nəzərdə tutulub ki, bu da 2014-cü il üçün hərbi xərclərdən rekord səviyyədə - 27,2 faiz artıqdır. Hazırda Ermənistanın dövlət büdcəsinin bütün xərcləri cəmi 3 milyard 73 milyon dollar (2014-cü il üçün) təşkil edir ki, bu da Azərbaycanın hərbi büdcəsindən təxminən 2 milyard dollar azdır.

Azərbaycan bu ilin yayında ilk dəfə Avropa Oyunlarına ev sahibliyi edəcək. Bu, Azərbaycanın bir nömrəli probleminin dünya ictimaiyyətinə çatdırılması üçün həm də tarixi bir şansdır. Azərbaycan ola bilsin ki, məhz bu tədbirdən sonra Ermənistanla ən son varianta - müharibəyə başlasın. Ukrayna hadisələri Rusiyaya yaxın regionda ərazi bütövlüyü məsələsini bir daha dünyanın, eləcə də Ermənistanı işğalçı kimi tanıyan BMT-nin 4 qətnaməsini bir daha gündəmə gətirdi. Beynəlxalq şərtlər Azərbaycanın lehinədir və Rusiyanın da Ermənistanın cığallığına sonadək dözmək fikri yoxdur. Ən əsası isə ordumuz getdikcə döyüş qüdrətini möhkəmləndirir, xalqın orduya inamı artır.

❑ **Xəbər xidməti**

# Əli İnsanov türmədə NİDA-çını sağaltdı

## İlkin Rüstəmzadənin atası maraqlı fakt açıqladı

**13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən NİDA hərəkatının üzvü İlkin Rüstəmzadənin atası Bakir Rüstəmzadə fevralın 14-də oğlu ilə görüşüb.**

O, modern.az saytına deyib ki, görüş zamanı oğlunun bədənində allergiya olduğunu öyrənib: "İlkin keçmiş səhiyyə naziri Əli İnsanovla eyni həbsxanada qalır. Oğlumun allergiyasına görə Əli müəllim bir neçə dərman yazmışdı. Ötən görüşdə dərmanları alıb apardım. Xeyri oldu, indi yaxşı olduğunu deyir".


Əli İnsanov


İlkin Rüstəmzadə

Bakir Rüstəmzadə oğlunun saxlanma şəraitindən narazılığının olmadığını da deyib: "Deyilənə görə, mart ayında əfv sərəncamı imzalanacaq. Bu sərəncama İlkinin də adının düşəcəyini səbirsizliklə gözləyirik".

Ötən ilin martında tutulan, Bakı İstintaq Təcridxanasında saxlanan NİDA-çı gənclər kütləvi iğtişaşları təşkil etmə cəhdində təqsirli biliniblər. O vaxt 8 NİDA-çı həbs olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Zaur Qurbanlı, Rəşadət Axundov, İlkin Rüstəmzadə 8 il, Məmməd Əzizov, Rəşad Həsənov 7 il 6 ay, Bəxtiyar Quliyev, Üzeyir Məmmədli 7 il, Şahin Novruzlu 6 il müddətinə azadlıqdan məhrum edilib. Dekabrın 16-da Bakı Apelyasiya Məhkəməsi NİDA-çı gənclər haqda hökmü qüvvədə saxlayıb.

Prezident İlham Əliyevin dekabrın 29-da imzaladığı əfv sərəncamı ilə Zaur Qurbanlı və Üzeyir Məmmədi azadlığa çıxıb. Bəxtiyar Quliyev *(o, həbsdə olarkən NİDA-dan çıxıb)* və Şahin Novruzlu isə prezidentin əfv sərəncamı ilə 2014-cü il oktyabrın 18-də azad olunublar.

Əli İnsanova gəlincə, virtualaz.org xatırladır ki, o, 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs olunub. Amma sonradan rüşvət almaq, vəzifə səlahiyyətlərini aşmaq və bir sıra iqtisadi cinayətlər törətmək ittihamı ilə 11 il müddətinə azadlıqdan məhrum edilib.

2013-cü il martın 14-də Avropa İnsan Haqları Məhkəməsi Ə.İnsanovun İnsan Hüquqları Konvensiyasının 3-cü (işgəncələrin qadağan olunması) və 6-cı (ədalətli məhkəmə çəkişməsi) maddələri ilə zəmanət verilmiş hüquqlarının pozulduğunu tanıyıb.

# "A.M.A.Y. Abdulla" məhkəmədə "danışacam" xəbərdarlığı etdi

## Abdulla Abdullayev çox şeyləri bildiyini və danışacağı təqdirdə bir çox məsələlərin dəyişəcəyini dedi

**Fevralın 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirli bilinən "A.M.A.Y." rəhbəri Abdulla Abdullayevin cinayət işi üzrə keçirilən məhkəmə prosesində qalmaqal yaşanıb.**

Virtualaz.org saytının xəbərinə görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən proses təqsirləndirilən şəxslərdən bəzilərinin vəkili gəlmədiyi üçün təxirə salınıb. Belə ki, saat 11-ə təyin olunan prosesdə dövlət hesabına verilən vəkillərdən Yunis Vəliyev və Şöhrət Allahmanov prosesə gəlmədiyi üçün proses saat 12:30-a təyin edilib. Saat 12:30-da həmin vəkillər prosesə gəlmədiyi üçün məhkəmə iclası saat 14:00-ə kimi yenidən təxirə salıb.


Abdulla Abdullayev

Təqsirləndirilən Abdulla Abdullayev hakimlərin qərarını narazılıqla qarşılayıb və onunla birlikdə təqsirləndirilən və zamində olan şəxslərin dövlət tərəfindən təmin olunan vəkillərdən imtina etməsini istəyib.

Məhkəmə fasiləsində sonra ittiham aktı elan olunub.

Məhkəmədə çıxış edən Abdulla Abdullayev ittihamın mahiyyətinin onun üçün aydın olmadığını və özünü təqsirli bilmədiyini deyib.

25 il dövlətə və dövlətçiliyə xidmət etdiyini deyən A.Abdullayev xuliqanlığa görə həbs edilməsini başa düşmədiyini bildirib.

**O, çıxışında deyib ki, Avropa İnsan Haqları Məhkəməsində də öz hüquqlarını təmin edə bilər:** "Amma dövlətə və dövlətçiliyə etdiyi xidmətə görə bu addımı atmaq fikrində deyiləm".

A.Abdullayev çox şeyləri bildiyini və danışacağı təqdirdə bir çox məsələlərin dəyişəcəyini deyib.

Məhkəmə prosesi fevralın 26-na təxirə salınıb.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A. Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədirlər.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İlkin istintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y." MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Novruz ərəfəsində əfv olacaq

**"Novruz bayramı münasibətilə prezidentin əfv sərəncamı imzalayacağı gözlənilir. Ümid edirik ki, bu il də ölkə başçısı humanistlik nümayiş etdirərək bir çox ailələrə sevinc bəxş edəcək".**

Bunu modern.az-a Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü, deputat Bəxtiyar Əliyev deyib.

O qeyd edib ki, Əfv Komissiyası hər zaman işləyir, mütəmadi olaraq ərizələr daxil olur: "İşçi qrup lazımi sənədləri toplayır və topladıqca komissiya üzvlərinə təqdim edir.

İşlər yekunlaşdıqdan sonra komissiya üzvləri öz fikrini formalaşdıraraq qərar qəbul edir, təkliflərimiz dövlət başçısına təqdim olunur. Əfv bilavasitə prezidentin səlahiyyətində olan məsələdir. Komissiya, sadəcə olaraq, işçi qurum kimi müraciətləri araşdırıb rəyini dövlət başçısına təqdim edir".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı da sayta açıqlamasında Novruz bayramı ərəfəsində əfv sərəncamı veriləcəyinə ümid edir:** "İşçi qrupu bu ay yığışacaq. Çünki hər il mütəmadi olaraq Novruz bayramı ərəfəsində cənab prezident tərəfindən əfv sərəncamı imzalanır. İnanırıq ki, bu Novruzda da bir çox ailələri sevindirəcəyik".

# Tofiq Yaqubluya necə qəzet verək?



Azər RƏŞİDOĞLU

**"Yeni Müsavat" qəzetinin məhbəsdə olan köşə yazarı Tofiq Yaqubluya oxumağa qəzet verilmir. Uzun müddətdir ki, vəkilləri onun adi bir hüququnu bərpa edə bilmirlər. Bircə bu fakt kifayət edir ki, Azərbaycanda siyasi motivlərə görə həbs edilən məhkumların durumunu xarakterizə etmək mümkün olsun. Bir yazar həbsxanaya düşdükdə, yeganə məqsədi informasiya blokadasını yarmaq, baş verən proseslər barədə məlumat əldə etmək və zindandan məqalələr yazmaq olur. Tofiq Yaqublu isə ən elementar hüququndan da məhrum edilib. Hazırda məhbəs həyatı yaşayan köşə yazarının "Lamiyə qalmaqalı"na münasibəti maraqlı ola bilərdi. Lakin Tofiq Yaqublu bu imkandan da məhrum edildi.**

Cəmiyyətdən təcrid edilən bir jurnalist üçün qəzetlər barmaqlıqları aşmaq üçün yeganə vasitədir. T. Yaqublu bu müstəvidə "mənəvi terrora" məruz qalan yeganə jurnalist deyil. Eyni aqibətlə dövlətə xəyanətdə suçlanaraq həbs edilən Rauf Mirqədirov üzləşib. Qəzet oxumağı gündəlik rasionundan heç bir halda xaric etməyən jurnalist bir dəfə də olsun belə müstəqil qəzetləri oxumaq imkanında olmayıb. Bu isə artıq mənəvi işgəncə kimi səciyyələndirilə bilər.

İnsanları azadlıqdan məhrum etmək heç də onları insanlıqdan məhrum etmək anlamına gəlmir. Qərb ölkələri bu problemi çoxdan həll ediblər. Avropa ölkələrinin həbsxanaları artıq az qala otellərə bənzəməyə başlayır.

Məsələn, Norveç həbsxanalarında məhkumun yaxınları ilə görüş üçün xüsusi evlər tikilib. Məhkumlar boş vaxtlarını müasir avadanlıqla təchiz edilmiş idman zalında, teatr dərnəyində keçirə bilirlər. Norveçdə məhkumlar üçün çimərlik və parklar da salınıb.

Böyük Britaniya həbsxanalarında məhkumlara yüngül narkotik maddə, mobil telefondan istifadəyə icazə verilir. Kameralarda televiziyaya baxmağa şərait yaradılıb.

Avropa ölkələrinin əksəriyyətində məhkumlara gecəyə qədər kameradan çıxış sərbəstdir. Məhkum mətbəxə, koridora və ya istirahət otağına heç kəsdən icazə almadan gedə bilər. İnternetə çıxışı olan kompüterlər, beynəlxalq çıxışı olan avtomat telefonlar məhkumların istifadəsindədir.

İsveç həbsxanalarında məhkumların qulluğunda həkimlər, psixoloqlar, saç ustaları ilə yanaşı, Qırmızı Xaş Komitəsinin könüllü işçiləri də dayanır. Həbsxanada məhkumlar üçün avtomat telefonlar quraşdırılıb. Telefon kartının köməyi ilə məhkum istədiyi yerlə əlaqə saxlayıb, istədiyi qədər danışa bilir. Həbsxana gündəlik nəşrlərə abunədir. Televizora isə gün ərzində məhdudiyyətsiz baxmağa icazə var. Hər kamerada televizor, soyuducu var. Xəstə məhbuslara isə xüsusi qulluq edilir. Onlar tibbin ən yüksən standartları ilə müalicə edilir. Özü də xəstələri məhkumlar üçün yox, adı xəstələr üçün nəzərdə tutulmuş hospitallarda müalicə edirlər.

Danimarka həbsxanalarında idman zalı, kitabxana, tibb mərkəzi və hətta alkoqoldan başqa hər cürə ərzaq satılan mağaza da var. Həbsdəkilər günə 50 kron xərclik alırlar. Buna baxmayaraq, onlar əlavə iş üçün saatına 10-35 kron arası pul alır. Bundan əlavə, onlar elə həbsxanadaca orta təhsil ala bilirlər. Həbsxana rəhbərliyi üçün ən böyük problem isə məhkumlar arasında şirniyyat yeyənlərin sayının artmasıdır.

Bu səbəbdən demək olar ki, hər həftə həbsxanaya diş həkimi çağırılır.

Almaniyada məhkumlar həbsxanadan kənarda gəzə, ofis kommunikasiyası ilə, bağbanlıqla məşğul ola bilərlər.

Avropa ölkələrinin həbsxanalarında internet məhdudiyyəti mövcud deyil. Qəzet, jurnal, kitab əldə etməyə heç bir qadağa yoxdur. Azərbaycanda isə bunun tam əksidir. Məhkum köşə yazarı qəzet əldə edə bilmirsə, bu, vəziyyətin dramatikliyini göstərir. Elə bu səbəbə görə də insanlar Avropa həbsxanalarında cəza çəkməyi Azərbaycanda azadlıqda gəzməkdən daha üstün tuturlar...



# Papaq altında alimlər var

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən dəyərlər.org saytından zəng vurub Milli Elmlər Akademiyamızdakı son elmi kəşfə münasibət öyrəndilər. Yəqin xəbəriniz var, AMEA Folklor İnstitutunun bir əməkdaşı Novruz bayramında qapılara papaq atıb sovqat yığılması adətinə qarşı çıxmışdır. Hörmətli alim çoxillik araşdırmalar sayəsində belə qərara gəlib ki, papaq bizim namus-qeyrət rəmzimizdir, onu ayaq altına atmaq olmaz.**

Torpaqlarının böyük bir hissəsini düşmən əlində qoyub yaltaqlıq edən bir millət üçün namus-qeyrətin simvolu Çin istehsalı idman papaqlarıdırsa, buna sözümüz yoxdur. Ancaq belə deyil. Azərbaycanlılar öz folklor institutlarından xeyli qabaqda olan, mütərəqqi insanlardır. Bunu elə-belə, söz xətrinə yazmıram. Son illərdə o institutda bir neçə biabırçı hadisələr olmuşdur. Misal üçün, söyüşlər, vulqarizmlərlə dolu nağıllar çap edib uşaqlara göndərmişdilər. Bir işçini isə siyasi rejimin əleyhinə fikirlərinə görə işdən qovmuşdular.

Eyni zamanda mən bu təklifin neftin ucuzlaşması fonunda əsməcəyə düşmüş iqtisadiyyatımızın bir törəməsi olduğu qənaətindəyəm. Onsuz da Molla Nəsrəddin demiş, külək belə əssə heç qapıya papaq atan olmayacaq, çünki o papaqlara qoymağa qoz-fındıq lazımdır. Bizdə dövri olaraq belə baş qatışdıran, diqqət yayındıran təkliflər ortalığa atılır. Bir vaxt toy və yas yerində yemək bolluğu mövzusu var idi, yadınıza gəlirmi? Nə oldu? Heç zad. Yenə ehsan verən verir, toy süfrələri də aşıb-daşır. Çünki mənasız söhbət idi. İndi bu papaqatma mövzusu da bir qədər məzə mövzusu olub unudulacaq. Əsas da ona görə ki, papaq atan uşaqların heç bu müzakirədən xəbəri olmayacaq. Onların çoxu “Misir, Mikayıl ənd Co” şirkətinin sayəsində hərf tanımırlar.

Ancaq hörmətli dəyərlər.org saytının sualına cavab verərkən mən bir cümlə işlətdim, sonra yadıma bəzi şeylər düşdü, fikirləşdim mövqeyim tam olaraq düzgün də deyil, Azərbaycan alimlərinin haqqını verməklazımdır. Cümlə belə idi: “Alimlərimizdən Böyük Adron Kollayderində Hiqqs bozonu axtarışları gözləyəsi deyilik ki, onlar elə papaq atmağı müzakirə edəcəklər”.

Məsələ ondadır ki, Avropanın mərkəzində, İsveçrədə yerləşən həmin CERN-də azərbaycanlı alimlər işləyirlər. Özü də çox şərəflə işləyirlər. Nəinki Azərbaycanı, bir az populist çıxsa da, yazaq: hətta bütün türk dünyasını ləyaqətlə təmsil edirlər. Örnək üçün, Saleh Sultansoy adlı fizik alimimiz CERN-ə Türkiyəni qoşmaqda böyük rol oynamışdır. Ümumən, Azərbaycanda təəssüf ki, o qədər də yaxşı tanınmayan bu görkəmli alim dünya elmi jurnallarında dərc edilən məqalə sayına, məqalələrinə istinada görə alimlərimiz arasında 1-ci yerdədir.

Bəs biz onu niyə tanımırıq? Çünki Sultansoy 1993-cü ildən çıxıb gedib Türkiyəyə, ordan da Avropaya. Öz biliklərini başqa ölkələrdə sərf edən belə alimlərimiz yüzlərlədir. Onlar burda qalıb AMEA-nın yaltaq akademiki olmaq, rejimə çəpik çalıb dövlət büdcəsindən uşağına bağ evi, maşın, arvad almaq istəməyənlərdir.

Tək Sultansoy deyil. CERN-də Hiqqs bozonu *(ona “Tanrı hissəciyi” də deyirlər - Böyük Partlayışdan, Kainatın yaranmasından qalma zərrəcik olduğu sayıldığı üçün)* axtaran azərbaycanlılar arasında bir gənc, istedadlı nəfər də var, atası burda alimdir və məzəlisi odur ki, ata da burda teleskopla Ayın Ramazan bayramında haçan görünəcəyini araşdırır.

Bu da onu göstərir ki, alim, elm kimin əlindədirsə, hansı rejimdə, dövlətdədirsə bunun böyük fərqi var. Bıçaqla adam öldürmək də olar, insan sağaltmaq da. Cəllad əlindədir, yoxsa cərrah - budur əsas məsələ.

Sonda bir müjdəni də bölüşək: deyilənə görə, deputatxana elm haqda qanuna dəyişiklik qayırır, bundan sonra AMEA-ya bizneslə məşğul olmaq hüququ veriləcək. Çoxdan lazım idi. O boyda binalardır, boş qalıb, heç olmazsa içəridə şadlıq salonu, paltar dükanı-filan açsınlar.

---

## Abbas Abbasov Azərbaycan xalqını aşağıladı

# “Milyarderlər ittifaqı”nın əsas fiqurundan xəyanətkar mövqe

### Erməniyönlü sayta müsahibəsində “Alver qanımızdadır” deyən RATİ-nin odioz üzvü “AzerRos”u əldə saxlamaq üçün son həmləyə hazırlaşır; Azərbaycanın Rusiyadakı səfirinin müavinindən Abbasovun ünvanına sərt ittihamlar gəldi; **Qudsi Osmanov:** “Əfsus ki, o, ayrı yolla getdi...”



Abbas Abbasov

**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - “AzerRos” ətrafında situasiya hələ ki tam aydınlaşmayıb. Bu mövzuya dair son yazımızda qurumun fəxri prezidenti Söyün Sadıqovun Azərbaycan baş nazirinin sabiq 1-ci müavini, “Milyarderlər ittifaqı” kimi tanınan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının (RATİ) əsas və odioz fiquru Abbas Abbasovla mübarizədə geri çəkildiyi haqda yazmışdıq.**

Lakin bu mövzuda başqa iddialar da var.

***

Qurultaya isə bir şey qalmayıb. Hətta məlumat gəlib ki, Abbasov tərəfdarları öz tədbirlərini martın 6-da yox, fevralın 20-də keçirməyi planlaşdırır. Üstəgəl, bu ərəfədə Abbas Abbasovun heç də “birləşdirici qurultay”ın ruhuna uyğun gəlməyən mövqe sərgiləyib. Ermənilərə yaxınlığı şübhə doğurmayan rusdilli "Regnum"a müsahibəsində o, Azərbaycan xalqını aşağılayan ifadələr işlədib. Belə ki, “AzerRos”un gələcəyi ilə bağlı ümumi suala sanballı cavab tapmayan Abbas Abbasov azərbaycanlıları təhqir edib. **“Bizim qanımızda bazarda alver eləmək vərdişi var, insanlara göstərdiyimiz xidmət də budur”** - deyib.

Göründüyü kimi, sabiq vitse-spiker Azərbaycan xalqının tacirlikdən başqa elə bir xüsusi qabiliyyətinin olmadığına işarə vurur. Bunu onun həm də erməniyönlü bir nəşrə müsahibəsində dilə gətirməsi üzücü olmaqla yanaşı, ikiqat ikrah doğurur və diqqəti təzədən özünün milli kökən məsələsinə yönəldir...

***

Bu arada Azərbaycanın Rusiyadakı səfirinin müavini, “AzerRos”un 17 yanvar qurultayında Sadıqovu və onun mövqeyini dəstəkləməklə Azərbaycan hakimiyyəti adından *(səfir müavini həm də rəsmi təmsilçidir)* qurultaya xeyir-dua verən Qudsi Osmanov "Mediafax" agentliyinə maraqlı açıqlama verib. O, təşkilatın indiki duruma düşməsində birbaşa Abbasovu günahlandırıb, sonuncunun ünvanına olduqca sərt ittihamlar səsləndirib. Müsahibədən bəzi sitatları diqqətə çatdırırıq.

**“Təşkilatda parçalanma bu gün yaranmayıb. Ötən il ərzində səfirliyə, səfirimiz Polad Bülbüloğlunun adına qurum fəallarından çoxsaylı şikayət məktubları gəlirdi ki, Azərbaycan vətəndaşı Abbas Abbasov onların işinə qarışır, hüquqlarını pozur, öz əlaltıları vasitəsilə təşkilatı idarə edir... 17 yanvar qurultayında mən vəziyyətin, böhranın nə dərəcədə dərin olduğunu əyani gördüm”.**



Qudsi Osmanov

“AzerRos” 10 ildən artıq uğurla fəaliyyət göstərib. Əfsuslar olsun ki, yeni rəhbərliyin *(Abbas Abbasovun adamı Məhərrəmovdan söhbət gedir - red.)* son iki ildəki kursu yaxşı hər şeyi heçə endirdi. Mən hələ təşkilatın adından onun rəhbərliyinin Azərbaycanla bağlı səsləndirdiyi siyasi bəyanatları demirəm - hansılar ki, yolverilməz idi. Bu bəyanatlardan sonra aydın oldu ki, muxtar qurum bu adamlara yalnız öz şəxsi ambisiyaları və maraqlarını reallaşdırmaq üçün lazımdır... İndi hamı başa düşür ki, mən də o fikirdəyəm ki, “cib adamları”nın köməyi ilə ictimai təşkilatı idarə eləmək olmaz. Bu, haradasa 90-cı illərin arxaik elementləri idi ki, diaspor təşkilatlarını bir nəfər idarə edirdi”.

“Ötən ilin dekabrında mən Abbas Abbasovla görüşdüm. 3 saat söhbət elədik. Əfsus ki, o, ayrı yolla getdi. Bəllidir ki, onun nəzarətində olan saytda bizim səfirin və mənim əleyhimə böhtan xarakterli məqalələr yerləşdirilmişdi. Bunun ardınca da erməni informasiya qaynaqları həmin materiallara istinadən Rusiyadakı səfirliyimizə qarşı çirkin kampaniyaya başlamışdılar”.

“Ola bilsin Abbas Abbasov Rusiya hakimiyyətinin bəzi nümayəndələrini çaşdırıb. Hesab edirəm ki, o, kabinet-kabinet gəzib onları yanlış səmtə yönəltmək, onlardan dəstək ummaqdansa, ”AzerRos" fəalları ilə anlaşmalıdır... Sual yaranır: qurumun əksəriyyətinin mövqeyi ilə inadla razılaşmaq istəməyən Abbasov hansı niyyətləri güdür? Mən onu başa düşə bilmirəm. Adam uzun illər Azərbaycan baş nazirinin 1-ci müavini olub. Bilirsiniz, insan tarixdə yaxşı adla qalmaq istəyirsə, öncə öz xalqının yaddaşında qalmalıdır. Özündə sonra o, nə qoyacaq bəs? Təəssüf ki, onun şəxsi iddiaları həmvətənlərinin maraqlarını üstələyir"

***

Öz növbəsində Rusiyanın iri şəhərlərindən olan Permdəki azərbaycanlı icması da Abbas Abbasovun hərəkətlərini pisləyən müraciət yayıb. Müraciətdən sitat:

“Təəssüflə deməliyik ki, son iki ildə Abbasov təşkilatı öz ”ata yurdu"na çevirib. Məntiqli sual ortaya çıxır: Ağsaqqallar Şurasının sədri postunda ikən cənab Abbasov kimə xidmət edib, hansı məqsədlər güdüb? Hətta “AzerRos”un fəxri prezidenti Söyün Sadıqov onun hərəkətlərinə etiraz olaraq qurumdan gedərkən belə demişdi: **“Qoy Allah Rusiyadakı biz azərbaycanlıları onun fitnələrindən qorusun...”**

***

Əlavə edək ki, “AzerRos” ətrafındakı son olaylar həm də “Milyarderlər ittifaqı”nın Azərbaycanın siyasi səhnəsində yenidən fəallaşmaq istəyi xəbərləri fonunda diqqət çəkir. Yada salaq ki, az öncə “Yeni Müsavat” Moskvanın elitar restoranlarının birində “Milyarderlər ittifaqı” üzvlərinin görüşü haqda xəbər dərc edib. Xəbərdə deyilirdi ki, həmin məclisdə Dağıstan prezidenti Ramazan Abdulatipov və Abbas Abbasovla bərabər Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov, həmçinin, qurumun digər üzvləri olub.

Xəbərdə o da iddia olunurdu ki, Rusiya 2015-ci il parlament seçkiləri ərəfəsi “Milyarderlər ittifaqı”nı yenidən dirçəltməklə Azərbaycan iqtidarına təzyiq etmək niyyəti güdə bilər. İbrahimbəyov belə bir görüşün olduğunu təsdiqləmişdi.

❑ **Siyasət şöbəsi**

**“Biz qərara aldıq ki, bu dialoqu davam etdirək və onu xüsusi format-vətəndaş cəmiyyətinə və demokratikləşməyə dair Amerika-Azərbaycan dialoqu formatında möhkəmləndirək”. Bunu ABŞ dövlət katibinin köməkçisi Viktoriya Nuland Bakıda keçirdiyi görüşlərin sonunda söyləmişdi. Diplomat əlavə eləmişdi ki, bu, ABŞ-la Azərbaycan arasında ikitərəfli struktur olacaq və Azərbaycanla Avropa Şurası arasında analoji təşəbbüslə paralel işləyəcək.**

# ABŞ-la yaradılacaq ortaq qurumun konturları məlum deyil

## Bakı ilə Vaşinqtonun razılaşdırdığı yeni qurumun məram-məqsədi barədə detallı bilgi yoxdur; hüquq müdafiəçiləri isə ABŞ-Azərbaycan-AŞ birgə işçi qrupunun yaradılmasını zəruri sayır...

Amerikalı diplomatın barəsində danışdığı qurumla bağlı hələ ki təfərrüatlı məlumat yoxdur. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyindən “Yeni Müsavat”a əlavə şərh verilmədi.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** isə dedi ki, ABŞ-dan bununla bağlı Azərbaycan tərəfinə konkret müraciət olunduğu təqdirdə müraciət təhlil olunacaq, araşdırılacaq və ona müvafiq münasibət bildiriləcək.

“Əgər insan hüquqları, demokratiya və vətəndaş cəmiyyəti sahəsində dialoq üzrə Amerika-Azərbaycan komissiyası yaradılarsa, bu, Azərbaycan əleyhinə informasiya yayan bəzi ABŞ təşkilatlarının məlumatlarının yalan olduğunu üzə çıxarar”. Bunu isə “Turan”a hakim partiyanın icraçı katibinin müavini, deputat Siyavuş Novruzov deyib. O, komissiyanın gələcək funksiyasını belə görür. Novruzovun sözlərinə görə, ABŞ-da fəaliyyət göstərən “Human Rights Watch”, “Freedom House” və digər bu kimi təşkilatlar Azərbaycan haqda yalan məlumatlar yayır. “Bu təşkilatların rəhbərliklərində erməni əsilli adamlar çoxdur. Onlar erməni lobbisinin dəstəyi ilə Konqres və Senatda Azərbaycan haqqında mənfi fikirlər formalaşdırırlar. Bütün bunlar Amerikanın maraqlarına ziddir və bu komissiya Azərbaycan haqda həqiqətləri yayaraq bu cür halların qarşısını almalıdır”, - S.Novruzov qeyd edib.

**Öz növbəsində Demokratik İslahatlar Partiyasının rəhbəri, deputat Asim Mollazadə bildirib ki, bu cür işçi qrupu artıq yaradılıb və Avropa Şurası ilə işləyir:** “Qrupa hökumət, parlament, QHT və hüquq-müdafiə təşkilatlarının nümayəndələri daxildir. Avropa Şurası və Avropa Parlamenti ilə bu cür əməkdaşlıq var və ABŞ ilə də belə qrupun fəaliyyətini normal hesab edirəm”. **O, Nulandın qeyd etdiyi kimi, vətəndaş cəmiyyəti, demokratiya, insan hüquqları, media azadlığı məsələləri üzrə dialoqa inanır:** “İnanıram ki, bu qrup Amerika-Azərbaycan münasibətlərinin inkişafına xidmət edəcək. Demokratiya və insan hüquqları sahəsində əməkdaşlığa ehtiyac var”.

**İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Hikmət Hacızadə belə bir qurumun yaradılmasından xəbərsiz olduğunu deyir. Ona görə bu haqda ətraflı danışa bilmir. Ancaq güman edir ki, Nulandın səfərindən sonra Azərbaycan hakimiyyəti siyasi məhbuslardan bəzilərini azadlığa buraxa və ya buna bənzər addımlar ata bilər. Hərçənd bundan artığına ümid etmir:** “Qısa zamanda köklü dəyişiklik gözləmirəm. Bunun üçün gərək geopolitik vəziyyət dəyişsin. Tutalım, Rusiya dağılsın, onda əsaslı nə isə ola bilər. Rusiyanın dağılmasına isə az qalıb”.

**O ki qaldı dövlət katibi köməkçisinin səfərindən sonra iki ölkənin münasibətlərində dəyişikliklərin baş vermə ehtimalına, Hikmət Hacızadə deyir:** “Əfsus ki, görüşün detalları mənə aydın deyil. Bizimkilərin mövqeyi belədir: ”Sizə aeroport, kəmər vermişik, daha nə istəyirsiz? Siz Allah, o insan haqları məsələsini qaldırmayın. Səudiyyə Ərəbistanı ilə necə əlaqə qurursunuzsa, bizimlə də elə əlaqə yaradın". Bax buna Nulandın cavabı bizə məlum deyil. Ancaq nə olur-olsun *(tutalım, başları bu gün Rusiyaya qarışsa da)* əvvəl-axır insan haqları və demokratiya gündəmə gələcək. Bunu ABŞ hökumətindən ABŞ ictimaiyyəti, qəzetləri, vətəndaş assosiasiyaları və sadə seçicilər tələb edir və edəcək. Bu tələblər güclənəcək".

**Politoloq Azər Qasımlı AzadlıqRadiosuna deyib ki, iqtidarın atacağı ən doğru addım - ABŞ-la lazımsız polemikanı kənara qoyub, yavaş-yavaş siyasi açılıma getməkdi:** “İki ölkə arasında yaranacaq qurum da fikrimcə, bu işdə yardımçı olacaq”. A.Qasımlı bu səfərdən sonra vətəndaş cəmiyyəti və demokratiya sahəsində müsbətə doğru addımlar atılacağını da istisna etmir.

Ancaq yaradılacaq qurumun tərkibində kimlərin təmsil olunacağı məsələsi də günün önəmli suallarındandır. Məsələ burasındadır ki, üçüncü sektorun ABŞ-a yaxın sayılan bir çox nümayəndələri ya həbsdədir, ya da basqı altında fəaliyyətsiz durumla üzləşib. Həmçinin ABŞ təsisatları da Bakını tərk edib. İki ölkə arasındakı münasibətlərdə uğurlar əldə etmək üçünsə ilk növbədə qarşılıqlı etimad mühitinin yaradılması, bütün tərəflərin təmsilçiliyi şəraitində yaradılan qurumun fəaliyyətindən keçir. Hüquq müdafiəçilərinin məsələyə özəl yanaşması var.

**Dilarə Əliyeva adına Qadın Hüquqları Cəmiyyətinin sədri Novella Cəfəroğlu deyir ki, Azərbaycanla ABŞ-ın yeni qurum yaratmasına ehtiyac görmür:** “2005-2008-ci illərdə fəaliyyət göstərmiş, Azərbaycan vətəndaş cəmiyyətinin və hakimiyyətinin nümayəndələrindən ibarət birgə işçi qrupu artıq yenidən fəaliyyət göstərir. Bu işçi qrupuna ABŞ-ı və təklif olunan başqa bir neçə nümayəndəni də əlavə edib bir yerdə fəaliyyət göstərmək mümkündür. Yoxsa çoxlu sayda işçi qrupuna nə ehtiyac var? Avropa və Amerikanın əsas məqsədi insan haqları, demokratiya məsələləri deyilmi? Elə isə bu prosesi bir yerdə aparsınlar da, əlavə quruma nə ehtiyac var?”

**İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi Bürosunun rəhbəri Səidə Qocamanlı da eyni fikirdədir:** “ABŞ və Azərbaycanın dialoq razılaşması çox müsbət addımdır. Əslində Nuland bu fikri ilə yenilik açmayıb. Azərbaycanda artıq belə bir qrup yaradılıb. İşçi Qrupunda iqtidar nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri ilə yanaşı, Avropa Şurasının rəsmi nümayəndəsi də var. Avropa Şurası katibliyinin siyasi məsələlər departamentinin rəhbəri, həmçinin baş katibin işçi qrupdakı xüsusi nümayəndəsi cənab Aleksandr Gessel də qurumda təmsil olunur. Artıq işçi qrupu yaradıldığına görə yaxşı olar ki, bu qurum daha geniş formatda təşkil olunsun. Bu, ABŞ-Azərbaycan-Avropa Şurası birgə işçi qrupu da adlandırıla bilər. Onların təmsilçilərinin, həmçinin QHT, siyasi partiyaların nümayəndələrinin birgə iştirakı ilə daha faydalı nəticələr əldə etmək olar. Bu, ölkəmiz üçün aktual məsələləri birgə həll etməkdən ötrü də faydalıdır. Həmçinin bir yerdə müzakirələr aparmaqdan ötrü də bu qrupun mövcudluğu çox faydalı olardı”.

❑ Cavid TURAN




Viktoriya Nuland




# Xocalı soyqırımı ilə bağlı böyük kampaniya başlayıb

## Azərbaycan diasporu dünyanın əksər ölkələrində erməni vəhşiliklərinin çatdırılması məqsədilə tədbirlər keçirəcək

**Xocalı soyqırımının 23-cü ildönümü bu il dünya ölkələrində yaşayan soydaşlarımız, Azərbaycan diaspor təşkilatları tərəfindən geniş miqyasda qeyd olunacaq. Soydaşlarımız bu tədbir və aksiyalarla 23 il əvvəl Azərbaycan xalqının məruz qaldığı qətliamı, erməni vəhşiliklərini yaşadıqları ölkənin ictimaiyyətinə və xalqına çatdırmağa çalışacaq.**

Diasporla İş üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, Azərbaycan diaspor təşkilatları Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlamış “Xocalıya ədalət!” beynəlxalq kampaniyasında da aktiv iştirak edəcək. Belə ki, ABŞ-ın Nyu-York şəhərində - BMT-nin mənzil qərargahının, Vaşinqtonda isə Ermənistan səfirliyi qarşısında etiraz aksiyalarının keçirilməsi, Los-Anceles, San-Fransisko, Hyuston, eləcə də digər şəhərlərdə yerli və xarici gənclər arasında faciə ilə bağlı debatların, konfrans, dəyirmi masa və anım mərasimlərinin təşkili planlaşdırılıb. Soyqırımın 23-cü ildönümü ilə əlaqədar Almaniya, Niderland, Belçika, Danimarka, İsveçrə, Polşa, İsveç, Finlandiya, Latviya, Litva, Estoniya, Rumıniya, Macarıstan, Çexiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən Xocalı soyqırımına həsr olunmuş müxtəlif səpkili tədbirlərin reallaşdırılması nəzərdə tutulub. Avropanın bir sıra şəhərlərinin mərkəzi küçə və meydanlarında yürüş, etiraz aksiyaları keçiriləcək, bəzi şəhərlərin ictimai nəqliyyatında Xocalı soyqırımından bəhs edən videoçarxın nümayişi, fotosərgilərin təşkili, fotostendlərin qurulması planlaşdırılıb. Bundan başqa, bir sıra ölkələrin yerli kütləvi informasiya vasitələrində Xocalı soyqırımının ildönümünə həsr olunmuş materialların dərci nəzərdə tutulub. Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar Rusiyanın, Ukraynanın bir çox bölgələrində, Belarus və Moldovada da faciəyə həsr olunmuş silsilə tədbirlər keçiriləcək. Faciənin növbəti ildönümü ilə əlaqədar Türkiyə, Gürcüstan, Qazaxıstanda geniş təbliğat kampaniyasının aparılması da nəzərdə tutulub.

Belçika, Niderland və Lüksemburqdakı 15-ə yaxın Azərbaycan diaspor təşkilatını özündə birləşdirən Benilüks Azərbaycanlıları Konqresi isə soyqırımla əlaqədar Avropa institutlarının rəhbərlərinə və Avropa Parlamentinin 751 üzvünə ünvanlanmış bəyannamə qəbul edib. Bəyannamədə dünya ictimaiyyətinin, xüsusilə Avropa ölkələri parlamentlərinin, beynəlxalq təşkilatların diqqətinə çatdırılır ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində törədilmiş kütləvi qırğın ən ağır cinayətlərdən biridir. Bir gecədə şəhərin əksəriyyəti yaşlı, uşaq və qadın olan 613 dinc sakininin vəhşiliklə qətlə yetirilməsi XX əsrin ən dəhşətli faciəsidir. Benilüks Azərbaycanlıları Konqresi dünya ictimaiyyətinə müraciət edərək insanlığa qarşı törədilmiş Xocalı soyqırımını tanımağı və günahkarların ədalət məhkəməsinə çağırılmasını tələb edir. Bəyannamə müəllifləri, həmçinin beynəlxalq təşkilatları və Avropa parlamentarilərini öz nüfuzundan istifadə edərək bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün doğma torpaqlarına təhlükəsiz qayıtmasını təmin etməyə çağırırlar. Bəyannamə Avropa Parlamenti, Avropa Komissiyası və Avropa Şurasının sədrlərinə, Birləşmiş Millətlər Təşkilatı, “Amnesty International”, “Human Rights Watch” təşkilatlarına, Niderland, Belçika və Lüksemburq parlamentlərinə göndərilib.

Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu və Ümumukrayna Azərbaycanlı Gənclər Təşkilatının təşəbbüsü ilə isə Kiyev şəhərində Xocalı soyqırımı ilə bağlı böyük kampaniyaya başlanılıb. Bu barədə Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri, Türk Şurasının Kiyev ofisinin koordinatoru Hikmət Cavadov məlumat verib. O bildirib ki, Kiyevin mərkəzi metro stansiyalarında Xocalıda azərbaycanlıların soyqırımı ilə bağlı Ukrayna dilində məlumatlandırıcı plakatlar yerləşdirilib: “Biz əhalinin daha çox istifadə etdiyi ”Maydan Nezalejnosti", “Xreşatik”, “Teatralnaya”, “Lev Tolstoy” kimi tanınmış mərkəzi metro stansiyalarının giriş və çıxışlarında asılmış bu plakatlarda erməni hərbi qruplaşmalarının azərbaycanlılara qarşı həyata keçirdikləri hərbi cinayətlərlə bağlı mətnli plakatlar yerləşdirdik. Bu təbliğat vasitələri fevralın sonunadək orda qalacaq".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015



# Mümkün olmayanı istəyin ki, mümkün olanı versinlər...

**Hüseynbala SƏLİMOV**

**Avtoritar siyasi sistemlərin bir qəliz xüsusiyyəti də olur; nəyin təbliğat, nəyin həqiqət olduğunu bilmək, həqiqəti təbliğatdan ayırmaq dönüb olur müşkül bir məsələ...**

Ona görə də neft böhranı ərəfəsində və dövründə deyilənləri şəxsən mən adicə təbliğat kimi qəbul etdim...

Ona görə ki, dövlət büdcəsi əhəmiyyətli dərəcədə neftdən asılı ölkənin dünyada böyük bir böhran yaşandığı vaxt öz iqtisadi mövqelərini saxlayacağı haqda vədlər mənə əvvəldən inandırıcı görünmədi...

İndi də hiss olunur ki, ölkədə, xüsusən də iqtisadiyyatla məşğul olan sektorlarda bir çaxnaşma var; bu gün bir söz deyir, sabah ona bir düzəliş verir və yaxud da özlərinin dediyi kimi "dəqiqləşdirmə" aparırlar...

Bir tərəfdən deyirlər ki, hər şey guya, qaydasındadır. O biri tərəfdən də əksər layihələri təxirə salırlar, büdcədə indidən qənaət yerləri axtarırlar...

O biri tərəfdən də özləri üçün problem yaradıblar. Avropa oyunlarını nəzərdə tuturam. Bu, böyük məsrəf tələb edən layihədir, mütləq keçirilməlidir, bir sözlə, istəsələr də, istəməsələr də, geriyə yolları yoxdur...

Elə siyasi vəziyyət də iqtisadi vəziyyətdən geri qalmır. Ölkə iqtisadi girdaba yaxınlaşdıqca siyasətlə bağlı şayiələrin də sayı artır...

Bəli, payızda parlament seçkiləri olmalıdır. Yadıma gəlir, sonuncu parlament seçkisindən dərhal sonra da bunlar ABŞ-a qarşı demarş etmişdilər. O vaxt da deyilmişdi ki, guya ABŞ müxalifət partiyalarının parlamentdə təmsil olunmasını tələb edib...

İndi bunlar seçki ərəfəsində ABŞ-a qarşı bir daha demarş etməklə nə demək istəyirlər?

Burada iki hal mümkündür. Ola bilsin, qabaqcadan özlərini sığortalamaq və parlament seçkisini ABŞ-Azərbaycan siyasi məsləhətləşmələrinin konteksindən ayırmaq istəyirlər. Yəni istəyirlər ki, ABŞ bu məsələnin üstündən sovuşub keçsin. Hətta ola bilər ki, ABŞ-dan artıq belə bir istək izhar olunub, ya da bunlara çatıb ki, ABŞ-ın siyasi dairələrində belə fikir var...

O da ola bilər ki, bunlar müxalifətlə özləri, ABŞ-ın iştirakı olmadan "bazarlaşmaq" istəyirlər. Əgər ABŞ-ın tələbi ilə müxalifətə parlamentdə yer ayrılsa bu, hakimiyyətin hədiyyəsi kimi qəbul edilməyəcək, müxalifətin, necə deyərlər, "ayağının altı bir az da yer alacaq" ki, bəs sizi buna məcbur etdik...

Amma müxalifətə özləri yer ayırsalar, bu, tamam başqa məsələdir. Onda necə deyərlər, müxalifətçilər biləcək ki, mandatlara görə kimə minnətdar olmaq lazımdır...

Bütün hallarda, güman edirik ki, hakimiyyət tərəfdən "bazarlaşma" istəyi olacaq. Bu, nə qədər olacaq, kimləri əhatə edəcək, bunlar da bilinəcək, geci-tezi var, payıza sayılı aylar qalıb...

Məsələ bundadır ki, hakimiyyətlər iki aspektdən güclü ola bilir; daxildən və xaricdən. Bu hakimiyyət xarici seçimlərini edib, ABŞ-ı deyil, Rusiyanı seçiblər. Deməli, Qərb tərəfdən mövqeləri bir az zəifləyib, halbuki çalışırlar öz siyasətlərində ABŞ-ı, tutaq ki, Almaniya ilə əvəz etsinlər. Amma ABŞ da ABŞ-dır. İndi ABŞ-la bir yerdə olmamaq birmənalı şəkildə Rusiya ilə olmaq kimi yozulur...

Qərəz, hakimiyyət Azərbaycana deyil, özünə yaxın seçimi etdi - Rusiyanın üzərində dayandı. Deməli, bir yolları qalır: "rəngli etirazlar"ın baş verməməsi üçün məcburdurlar ki, daxildə güclü olsunlar. Bunun üçünsə həm müxalifətlə, həm də cəmiyyətlə dil tapmalıdırlar...

Cəmiyyət məsələsində aydındır. Çox çalışırlar ki, iqtisadi siyasətin ağır sosial nəticələri olmasın. Düzdür, buna nail ola biləcəklər, ya bilməyəcəklər, bu hələ qaranlıq məsələdir...

Qalır müxalifət. Bunun üçünsə parlament seçkisi var... "Bazarlaşmaq" üçün parlament seçkisindən əlverişli məqam varmı?

Müxalifət, necə deyərlər, bir-iki "dərs"i, lap dəqiq desək, iki görüşü buraxıb. Elə üçüncü görüşdə də buraxmaq olar. Amma dördüncü görüşdə mütləq iştirak etmək lazımdır...

Təbii ki, bunu simvolik olaraq deyirik. 60-cı illərdə etiraz edən Paris gənclərinin çox maraqlı bir şüarı vardı: Realist olun, mümkün olmayanı tələb edin!

Bu hakimiyyət bölüşməyi sırf maddi aspektdən başa düşür; yeni, bizim siyasətimiz qalsın, bunun üçün hətta müxalifətə də azacıq pay verə bilərik...

Ola bilsin, belə yol daha heç bir perspektivi olmayan partiya funksionerlərini qane edir. Amma bir az da realist olmaq lazımdır: mümkün olmayanı istəmək lazımdır ki, sənə heç olmasa, mümkün olanı versinlər...

# Aslan Aslanovun həbs etdirdiyi iş adamından şok məktub

## "Mənə o qədər işgəncə verilmişdi, həbsdən çıxandan sonra 1 il uşaqlarımı tanımadım, yaddaşım silinmişdi"

**Əməkdaşlarımız "Lamiyə işi" ilə bağlı Şəmkirdə araşdırma aparıb. Əvvəlki saylarımızda buna dair bir neçə yazı dərc edilib. Müxbirlərimiz öyrənib ki, Şəmkirin sabiq icra başçısı Aslan Aslanov övladının öldürülməsini iş adamı Elpərəst Həsənlinin sifarişi kimi təqdim etməyə çalışıb. Bunu Ruslanı öldürən Lamiyə Quliyevanın qohumu Fariz Yusibov da müsahibəsində deyib.**





F.Yusibova həbsdə təklif olunub ki, "Xəlil Həsənli" firmasının rəhbəri olan E.Həsənlinin üzünə dursun və azadlığa çıxsın. Ancaq Lamiyənin xalası oğlu bunu etməyib. Şəmkirdə olarkən E.Həsənli ilə görüşmək istəyimiz baş tutmadı.

E.Həsənlinin həbsdən sonra səhhəti yaxşı olmadığı, danışa bilmədiyi, sinir sistemlərinin pozulduğu, ayağından əməliyyat edildiyi deyildi. Amma onun prezident İlham Əliyevə başına gələn müsibətlərlə bağlı yazdığı məktubu əldə edə bildik. Onun məktubundakı ilginc məqamları dərc edirik.

### "Aslanov qardaşımı və oğlumu tutdurdu"

**E.Həsənli məktubunda yazıb ki, Şəmkirdə 1998-ci ildə Mərkəzi Kolxoz Bazarını özəlləşdirib. Özəlləşdirmədə icra başçısı A.Aslanovun razılıq məktubu olub və Dövlət Əmlak Komitəsi tərəfindən sənədləşdirilib. Daha sonra şəhadətnamə və texniki pasport əsasında Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilib. Sahibkarın sözlərinə görə, dövlətə 3 il ərzində keçiriləcək pul 4 ayda ödənilib:** "Torpaq o vaxt satışa verilmədiyinə görə, dedilər 1 il icarəyə götürün, sonra özəlləşdirərsiniz. Sonradan Aslanov mərhum Heydər Əliyevin fərmanına məhəl qoymadı. Daxili sərəncamla 2 hektar 23 sot torpağın 1 hektar 1,5 sotunu bələdiyyəyə verdi. Sonra bazarın yarısını zorla bağladıb yaxın adamlarına verdi, onlarla şərik oldu. Bu şəxslər tərəfindən dövlətə heç bir vergi ödənilməyib".

**Sahibkar yazır ki, Aslanovun öznbaşına addımını 1 saylı İqtisad Məhkəməsi ləğv edib:** "Amma Şəmkir rayon torpaq şöbəsi ilə Torpaq Komitəsinin sədri Aslanova saxta torpaq aktı verdi. Yenidən məhkəməyə üz tutdum, akt dərhal ləğv edildi. Lakin ədliyyə polisinə gedən sənədə icra başçısı məhəl qoymadı. Aslanov rayon polisi və hərbi polislə birgə bazarı zor gücünə tamamilə bağlatdırdı. Məhkəmə işə baxmaqdan çəkindi. Aslanovun hegemonluğu o dərəcəyə çatmışdı ki, heç bir günahı olmayan qardaşımı qanunsuz olaraq evdən çağırtdırıb, 10 sutka həbs cəzası verdirdi".

**Ancaq Aslanovun ürəyi soyumayıb. Onun əsgər oğlu Xəlili gecə saat 3 radələrində hərbi polis əməkdaşları hərbi hissədən çıxarıblar:** "Polislər hərbi hissəyə gələrkən mənə zəng vurdular. Hərbi hissəyə gəlib, onların kimliyini soruşub sənəd tələb etdim. Dedilər ki, bu, yuxarı dairələrin sifarişidir. Bizi yuxudan oyadıb, əmr veriblər ki, bu uşağı təcili gətirməlisiniz. Oğlumu aparıb, 10 sutka cəza verdilər. Mən mətbuat konfransı keçirəcəyimi bildirdikdən sonra 4-cü sutkada oğlumu azad etdilər.

Oğluma hərbi hissədən guya 4 dəfə icazəsiz getməsi barədə saxta sənədlər tərtib ediblər. Əgər oğlum icazəsiz getmişdisə, bəs onda nəyə görə o zanman onlar prokurorluğa raport yazıb verməmişdilər? Mən hərbi hissə və bölük komandirlərindən bu barədə soruşanda, hərbi hissə komandiri Təbriz dedi ki, bizi məcbur ediblər, Aslanovun sifarişidir".

### "Həbsdə çəkiclə başıma vurulub, ayağım deşilib"

**E.Həsənli bidlrir ki, o zaman Şəmkir Rayon Polis Şöbəsinin rəisi olan A.Göyüşov altı müavini və 30-40 nəfər polis işçiləri ilə birlikdə bazardakı piştaxtaların 15-ni dağıdıb və bazarın arxa tərəfindəki dağın dibinə töküblər:** "1994-cü ildə həmin bu şəxslər mənim şəxsi vəsaitim hesabına tikdirdiyim "Ana Şəmkir" kafesini bütün avadanlığı ilə birlikdə yağlı benzinlə Aslanovun göstərişi ilə yandırıblar"...

İş adamı ilə icra başçısının çəkişməsi sonda birincinin həbsi ilə nəticələnib. 2005-ci ildə A.Aslanov E.Həsənlini ona böhtan atmaqda ittiham edərək tutdurub. Belə ki, həmin dövrdə Şəmkir N saylı hərbi hissənin komandiri, general Fikrət Məmmədovun ölümündə Aslanovun barmağının olduğu iddiaları səslənib. Əslən Lənkərandan olan F.Məmmədov yol qəzasında həlak olub.

İddia olunur ki, onun karyera yüksəlişi A.Aslanovun kirvəsi olan o dövrkü müdafiə naziri Səfər Əbiyevi narahat etməyə başlayıbmış. Ölümündən əvvəl F.Məmmədovun müdafiə naziri təyinatı barədə müzakirələr gedibmiş. Qəzanın sui-qəsd olduğu barədə iddialar iş adamın həbsinə gətirib çıxarıb. A.Aslanov onun haqqında böhtan atmaq və rüşvət vermək ittihamı ilə cinayət işi açdırıb. Rüşvət vermə ittihamında isə qeyd olunub ki, guya əsgərlikdə oğluna görə komandir Təbriz Dadaşova 100 dollar verib. Məhkəmədə prokuror E.Həsənliyə 4 il iş istəsə də, hakim 7 il cəza kəsib.

**İş adamı 2, 6 ay sonra prezident tərəfindən əfv edilib:** "Bayıl türməsində mənə zəhər verilib, işgəncələr olub, çəkiclə başıma vurulub, ayağım deşilib. Oğlumu da həbs etmək istəyirdilər. Onlar Rusiyaya getdi. Mənə o qədər işgəncə verilmişdi, həbsdən çıxandan sonra 1 il uşaqlarımı tanımadım, yaddaşım silinmişdi. İstintaq təcridxanasının rəisi nəzarətçi Adil vasitəsilə mənə zəhər vermişdi, 17 vərəmli xəstənin yanına salmışdı".



**Şəmkirin sabiq başçısı oğlunun qətlində sahibkar Elpərəst Həsənlini sifarişçi kimi göstərmək istəyib, bazarını dağıtdırıb; daha sonra generalın ölümü ilə bağlı həbs etdirib**



❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu, Şəmkir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015



# "Ermənistanın siyasi hakimiyyəti nevroz vəziyyətindədir"

**Politoloq Qabil Hüseynli:** "Sərkisyan daxildə ictimai rəyin onun əleyhinə sürətlə dəyişdiyini görür və yenə müharibə kartına əl atıb hay-küy salır, Ermənistan əhalisini sakitləşdirməyə çalışır"

**"Qarabağda müharibə meşə yanğını kimi qəfil başlaya, Rusiya isə bölgədə sülhü təmin etmək adı altında öz qoşunlarını münaqişə zonasına yeridə bilər". Bu barədə ABŞ-ın nüfuzlu "Newsweek" jurnalı yazıb. Virtualaz.org saytı xəbər verir ki, jurnalın məqaləsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində yanvarın əvvəllərindən başlayaraq artan gərginliyə toxunulur və iki ölkə arasında müharibənin "təsadüfən başlaması" təhlükəsinin mövcudluğundan bəhs edilir.**

Ekspertlər jurnala açıqlamalarında qeyd edirlər ki, Rusiya bu münaqişədən regionda hakimiyyətini möhkəmləndirmək üçün istifadə edə bilər.

"Newsweek" yeni ilin başlamasından bu yana təmas xəttində ermənilərin onlarla itki verdiyini xatırladır. Bildirir ki, 1994-cü ildə atəşkəs razılaşmasının əldə olunmasına baxmayaraq təmas xəttində tez-tez baş verən atışmalar bu münaqişənin xarakterik cəhəti idi. Bununla belə, ekspertlər indi xəbərdarlıq edirlər ki, bu il vəziyyət əvvəlki illərdən xeyli pis olub.

İrəvanda mənzillənmiş Strateji Araşdırmalar Mərkəzinin direktoru Riçard Kirakosyan deyir ki, o, daha çox təsadüfi müharibədən, yaxud təmas xətti boyu toqquşmalar spiralının nəzarətdən çıxıb böyük müharibəyə səbəb olmasından qorxur. Ekspert təmas xəttində itkilərin sayının əsasən yay vaxtına hesablanmış döyüş şəraitini nəzərə alanda "çox qeyri-adi" olduğunu bildirir.

**Kirakosyan yaxın aylarda toqquşmaların daha da artacağını gözləyir. O, qoşunların təmas xətti boyu bir-birinə nə dərəcədə yaxın dayandığını təsvir edərək deyir ki, atəşkəsdən sonra heç vaxt belə olmamışdı. Ekspert döyüş zonasının Azərbaycan-Ermənistan sərhədi boyu uzandığını da xatırladır. Kirakosyan qeyd edir ki, sülh prosesinin dayanması ilə əlaqədar olaraq hər iki tərəf son aylarda silahdan istifadəyə meyllənir:** "Azərbaycan və Ermənistan hazırda dünyanın ən çox hərbiləşmiş ölkələri sırasındadır. Rusiya hər iki tərəf üçün əsas silah təchizatçısıdır.

İndi Rusiyadan dəstəklənən separatçılarla Ukrayna arasında davam edən böhranı, Moskvanın Gürcüstana dair aqressiv planlarını nəzərə alan ekspertlər narahatdır ki, Putin regionda hakimiyyətini möhkəmləndirmək üçün xeyli dərəcədə riskli və ağıllı addımları nəzərdən keçirir".

Kirakosyanın sözlərinə görə, Qarabağ ətrafındakı situasiyada maskanın bir tərəfi Rusiyadır. Rusiya üçün status-kvo o qədər də yaxşı deyil. Lakin Putin sülhməramlıları regionda yerləşdirmək üçün bu münaqişəni qızışdıra bilər.

"Newsweek" Azərbaycan mətbuatında Qarabağ separatçılarının ABŞ tərəfindən maliyyələşdirildiyinə dair xəbərlərin dərc olunduğunu da xatırladır. Jurnal yazır ki, bu iddianı əsaslandıra bilməz. Ancaq Kirakosyan deyir ki, Qarabağa Amerika maliyyəsi əvvəllər də olub, ancaq ayrılan vəsaitin xərclənməsinə nəzarət etmək mümkün olmadığından son iki ildə dayandırılıb.

**Londondakı Sülh və Müharibə İnstitutundan Con Makleod isə jurnala açıqlamasında deyib ki, vəziyyət olduqca pisdir və hazırda təmas xəttində insidentlərin sayı artıb:** "Həmişə təhlükə var ki, tərəflərdən biri xətti keçəcək və bu, meşə yanğını kimi hər yerə yayılacaq. Və siz xəbər tutana qədər orada müharibə başlayacaq".

Britaniyalı ekspert bildirir ki, o, Rusiyanın maraqlarının nədən ibarət olduğunu bilmir. Lakin ruslar getdikcə daha fəal regional oyunçuya çevrilirlər. C.Makleod hesab edir ki, ola bilsin Rusiya öz hakimiyyətini möhkəmləndirmək üçün "sülhməramlılar" adı altında öz qoşunlarını regiona göndərəcək.

**Politoloq Qabil Hüseynli isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "Newsweek" jurnalının yazdıqları nəzəri bir ehtimaldır, versiyadır. Amma bu ehtimal əlbəttə ki, müəyyən kəşfiyyat sirlərinə söykənir. Bu xəbərdə deyilənlər Rusiya silahlı qüvvələrinin baş qərargahında hazırlanmış variantlardan biri ola bilər: müharibəni hansısa formada alovlandırmaq, sonradan isə həmin bölgəyə qoşun yeritməklə öz təsiri altına almaq:** "Bu, hərbi-strateji-taktiki cəhətdən Rusiyanın proporsiyadan keçirilmiş variantlarından biridir. Amma ortada bu məsələni müəyyən qədər zərərsizləşdirən və hətta mümkünsüz edən başqa bir faktor var. O da Rusiya-Azərbaycan münasibətləridir. Bu münasibətlər əgər normal səviyyədə olacaqsa və Azərbaycan bu məsələdə Moskva ilə dil tapmağa nail olacaqsa, dediyimiz versiya elə versiya olaraq da qalacaq. Əgər Azərbaycan-Rusiya münasibətlərində müəyyən mürəkkəbliklər, müəyyən çətinliklər meydana çıxacaqsa, təkcə "Newsweek" jurnalının irəli sürdüyü versiya yox, başqa versiyalar da ortaya çıxa və hətta reallaşa bilər. Rusiyanın bir çox kartları var. Təkcə bölgədə müharibəni alovlandırmaq yox, "beşinci kolon"u işə salmaq, milli azlıqları ayağa qaldırmaq, müxtəlif təxribat qruplarını canlandırmaq kimi məsələlər də Rusiyanın kartları sırasına daxildir. Amma mənə belə gəlir ki, hələlik hadisələr Rusiya-Azərbaycan münasibətlərinin yaxşılaşmasına doğru inkişaf edir. Xüsusilə də Dumanın MDB üzrə komissiyasının sədri bugünlərdə belə bəyanat verdi ki, guya Putin Qarabağ probleminin həllinə dair optimal bir variant üzərində işləyir və bu variant başa çatdıqdan sonra Qarabağ problemini həll etmək mümkün olacaq. Düzdür, bu optimal variantın mahiyyəti açıqlanmır və hərbi sirr kimi saxlanılır. Amma Putinin ətrafındakılarda belə fikir formalaşmağa başlayıb ki, Qərblə münasibətlər pisləşməkdə davam etdiyi təqdirdə Putin müsəlman ölkələri ilə münasibətləri yaxşılaşdırmalıdır. Müsəlman ölkələrinə yaxınlaşmanın, onlarla strateji əməkdaşlıq yaratmağın mühüm vasitələrindən biri Türkiyə ilə, sonra isə Azərbaycanla münasibətləri yaxşılaşdırmaqdır. Məhz Rusiya-Türkiyə-Azərbaycan üçlüyü həm müsəlman dünyasını vahid bir platformada birləşdirməyə kömək edə bilər, həm də Rusiyanın Qərbə qarşı dirənişini artıra bilər. Bunu Jirinovski də dəfələrlə təkrarlayıb. Putinin müsəlman ölkələrinə səfəri də təsdiq edir ki, Rusiyanın xarici siyasət strategiyasında müsəlman ölkələri ilə münasibətlərin yaxşılaşdırılması ana xətlərdən birini təşkil edir. Bu isə sözügedən saytın versiyasının reallaşmasında tormozlayıcı rol oynayan amildir".



**"Amerika jurnalının yazdığı məsələ Rusiya silahlı qüvvələrinin baş qərargahında hazırlanmış variantlardan biri ola bilər"**

Müharibənin alovlanacağı barədə məlumatlar yayıldığı bir vaxtda Ermənistan prezidenti ölkəsinin Müdafiə Nazirliyinin kollegiya iclasında çıxışı zamanı müharibə ritorikasını bir qədər də sərtləşdirib. İşğalçı ölkənin başçısı sərsəm açıqlamalarını davam etdirərək guya masasının üzərində bütün variantlar olduğunu deyib.

**Politoloq Qabil Hüseynli hesab edir ki, Ermənistanda Sərkisyan iqtidarına qarşı xalqın qəzəbi var və artıq Sərkisyan hakimiyyət kürsüsünün laxladığını hiss eləməyə başlayıb. Onun müharibə ritorikasını sərtləşdirməsi əslində daxili ictimai rəyə hesablanıb:** "Serj Sərkiyan boşboğazlıq edir. Onun söylədiklərinin hamısı daxili ictimai rəyə yönəlmiş boş sözlərdən başqa bir şey deyil. Bu yaxınlarda nüfuzlu bir beynəlxalq təşkilatın güclü ordularla bağlı hazırladığı siyahı yayıldı. O siyahıda Azərbaycan ordusu bir neçə parametrlərə görə Ermənistan ordusundan üstündür, Ermənistandan ən azı 1 rəqəm yuxarıda dayanır. Yəni Azərbaycan ordusu hazırda dünyanın güclü orduları sırasına daxildir. Ermənistanın hər hansı bir təxribatına Azərbaycan sarsıdıcı cavab verəcək. Bunu Sərkisyan yaxşı başa düşür. Sadəcə olaraq, daxildə ictimai rəyin onun əleyhinə sürətlə dəyişdiyini görür və yenə müharibə kartına əl atıb hay-küy salır, Ermənistan əhalisini sakitləşdirməyə çalışır. Sərkisyan hiss edir ki, hakimiyyətdən gedəcək. İndiki davranışları çabalamaqdır. Ermənistanın siyasi hakimiyyəti nevroz vəziyyətindədir, orada ağız deyəni qulaq eşitmir. Dediklərinin öz ölkələri üçün hansı nəticələr törədəcəyini də fikirləmirlər. Bu nöqteyi-nəzərdən Sərkisyanın növbəti davakar, millitarist bəyanatını da boş saymaq lazımdır".

**Q.Hüseynli ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin Xankəndində verdiyi "Gərginliyin artdığı bir vaxtda girovların qaytarılması kimi humanitar təşəbbüs danışıqlar üçün daha əlverişli atmosferin yaranmasına səbəb ola bilər" bəyanatını da şərh etdi. Politoloq bildirdi ki, həqiqətən də Ermənistanın öz doğma kəndlərinə doğmalarının məzarını ziyarətə gedən azərbaycanlılardan birini öldürməsi, ikisini isə girov götürüb onların üzərində saxta məhkəmə qurması Qarabağla bağlı sülh danışıqları prosesinə ciddi zərbə vurub və zərbə vurmaqdadır. Bunu Ceyms Uorlik də müşahidə edir və narahatedici vəziyyətin yarandığını artıq dilə gətirir:** "Mənim zənnimcə, Ceyms Uorlik son zamanlar daha konstruktiv danışmağa, həqiqətlərin üzərinə getməyə başlayıb. Əslində Ceyms Uorlik bu açıqlaması ilə Dilqəm Əsgərovun və Şahbaz Quliyevin ermənilər tərəfindən girov saxlandığını etiraf etmiş olub. Bu açıqlama bir daha göstərdi ki, ermənilərin qondarma məhkəmə şousunun azərbaycanlı girovlarla bağlı çıxardığı "hökm" dünya tərəfindən qəbul edilmir, hər kəs bilir ki, azərbaycanlıları qanunsuz olaraq girov saxlayırlar. Artıq Minsk Qrupunun həmsədri etiraf edir ki, həmin şəxslərin girov saxlanması bölgədə gərginliyi artırır. Diplomat gərginliyin artması fonunda diplomatik arenada irəliləyişə nail olmağın mümkün olmadığını bilir. Ermənistan kəlbəcərli girovları hələ də azad etməməklə danışıqlar prosesinə açıq-aşkar əngəl yaradır. ABŞ dövlət katibinin müavini xanım Nulandın da Bakıda və İrəvanda kəlbəcərli girovların azad olunması məsələsindən danışması girovlar məsələsinin Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinə mane olmasından, bölgədə gərginliyə stimul verməsindən narahatlığın təzahürü sayıla bilər".

**Q.Hüseynli sonda vurğuladı ki, Dilqəm Əsgərovla Şahbaz Quliyevin azad olunması barədə beynəlxalq ictimai rəy artıq formalaşıb. Ermənistanın girovları buraxmaqdan başqa yolu qalmayıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015



# "Özgecana dəstək" kampaniyası Azərbaycanda aranı qatdı

## Gənc fəal oğlanlar qısa yubka geyindi, etirazlar var

**Türkiyədə böyük səs-səda doğuran Özgəcan Aslan cinayətində qatillərin etirafları eşidənləri dəhşətə gətirib. 20 yaşlı qıza təcavüz etmək istəyən sürücü qızın cəsədini yandırmazdan əvvəl onun əllərini kəsib. Bütün Türkiyəni ayağa qaldıran bu hadisəyə Azərbaycandan da reaksiya var.**

Belə ki, NİDA-nın həbsdən yeni çıxan üzvü Zaur Qurbanlı və daha bir neçə gənc "Özgecan için mini etek giy" aksiyasına başlayıb. Onlar mini yubka geyinərək, Türkiyədəki gənc qızın təcavüzə uğramasına bu cür təpki göstərib. Amma aksiyaya etiraz edənlər, onu lağa qoyanlar, gəncləri məsxərə obyektinə çevirənlər də az deyil. Bu əhval daha çox özünü sosial şəbəkələrdə göstərir.

Etiraz edənlərdən biri də tanınmış şair Rüstəm Behrudidir. R.Behrudi öncə bu duruma etiraz olaraq sosial şəbəkədə status paylaşıb. Status aşağıdakı kimidir: "Qəribə toplumuq, çox qəribə...Türkiyədə zorlanıb öldürülmüş qız üçün ətək geyənlər Neftçalada əmisi, atası, qardaşı tərəfindən zorlanmış 15 yaşındakı qız üçün, Ağdaşda zorlanmış 12 yaşında qızcığaz üçün, Masallıda bacısı ilə evlənmiş qardaş üçün cınqırlarını belə çxartmadılar.

Ətək sizə çox yaraşır, ətəyiniz mübarək".

**Bu etirazını "Yeni Müsavat"la paylaşan şair bildirdi ki, gənclərin etdiyi sadəcə görüntüdür:** "Niyə burda səsləri çıxmır? Artıq Azərbaycandakı əxlsaqsızlıq, ailə münasibətlərinin pozulması, boşanmalar ifrat həddə çatıb. Bu da cəmiyyətin deqredasiyasıdır. Cəmiyyət millət olmaqdan çıxıb şeytanlaşmış topluma keçib. Millət sözünü yazmaqdan utanıram. Cəmiyyətdə ajiotajı yaradan adamlar yubka geyinmişlərə gülürlər. Onlara gülmək yox, əlinə silah alıb vuruşmaq lazımdır".

**Müsahibimizin sözlərinə görə, dünyanın bir çox ölkələrində əxlaq polisi deyilən polis var. Onun sözlərinə görə, hətta Türkiyədə də bu polislərdən var, amma Azərbaycanda yoxdur:** "Ən əxlaqsızlaşmış cəmiyyətdə əxlaq polisi yoxdur. Bunun qarşısını amaq olar, amma istəmirlər. Səbəb sadədir. Hamı əxlaqsız olanda onların əxlaqsızlığı görünməsin. İndi isə gənclər belə aksiya keçirirlər. Kim yubka geyinsin, geyinməsin. Türkiyədə yüzlərlə belə hadisə olub. Azərbaycanda da olub. Ölkəmizdə 12 yaşlı qızla bağlı baş vermiş o olayı oxuyanda ağladım mən. Bu seksual çatışmazlıq deyil, əxlaqsızlıqdır".









**Rüstəm Behrudi:** "Onlara gülmək yox, əlinə silah alıb vuruşmaq lazımdır"

**Zaur Qurbanlı:** "Cəsarəti çatmayanlar təhqir edəcəklər"

**Zaur Qurbanlı isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu aksiyanı birinci özü başlayıb. O, bunun kampaniyaya çevriləcəyini təxminən hesabladığını dedi:** "Cəmiyyətin necə olacağını bilirdim. Cəsarəti çatmayanlar təhqir də edəcəklər. Niyə belə elədik? Deyirlər ki, Özgecan zorlananda yubkada olmayıb. Hətta Türkiyədə də belə mövqe səsləndirildi ki, qızlar gödək yubka geyinməsələr, kişilər, təcavüzçülər də belə münasibətdə olmazlar. Biz onunla göstərmək istədik ki, geyim intim məsələdir, heç kim qarışa bilməz. Adi yubka da geyinsə, açıq-saçıq geyinməsə də.

Problem yubkadadırsa, biz də yubka geyindik".

**Müsahibimizin sözlərinə görə, burda əsas məsələ qadın-kişi, qadına yuxarıdan aşağı baxmaq məsələsidir. Z.Qurbanlı dedi ki, kampaniyanın Türkiyədəki olaya həsr olunması da səbəbsiz deyil:** "Hər kampaniya nəyəsə həsr olunur. "Əsgər ölümlərinə son" aksiyası keçirirdik. Orda bizə deyilə bilərdi ki, atəşkəs dövründə 10 mindən artıq əsgər öldürülüb. Bu, məntiqsizdir. Hər kampaniya partlamanın nəticəsidir. Özgecana aksiya o demək deyil ki, reklamı çox olana etiraz edirik. Bundan əvvəl olanlara və olacaqlara etiraz edirik. Azərbaycandakı hadisələrdə ad çəkilmədiyinə və xəbərimiz olmadığına görə - təcavüzə məruz qalanların özü, ailəsinin razılığı olmadığı üçün - bu məsələ ictimailəşmədi".

**Z.Qurbanlı dedi ki, yubkaya görə ona lağ edənlər "ana-bacı söhbəti" edən kateqoriyaya aiddilər:** "Bu da onların öz problemidir, bizi maraqlandırmır".

❑ **Sevinc TELMANQIZI**

# Ölüm hökmü bərpa edilə bilərmi?

**Özgəcan Aslan cinayətinin ardından Türkiyə cəmiyyəti ölüm hökmünün bərpasını tələb edir. Hətta qardaş ölkənin yüksək rütbəli şəxsləri və ictimai xadimləri arasında da bu fikrə dəstək verənlər var. Bugünlərdə Türkiyə parlamenti ölüm hökmünün bərpası məsələsini müzakirə edəcək. Bu barədə Türkiyə parlamentinin Hüquqi işlər üzrə komissiyasının rəhbəri Əhməd İyimaya bildirib.**

Türkiyə parlamentinin üzvü bildirib ki, ölüm hökmü qadınlara qarşı zorakılıq, eləcə də xüsusi amansızlıqla cinayətlər törədildiyi hallarda tətbiq oluna bilər. Qeyd edək ki, Türkiyənin Mersin vilayətində 20 yaşlı tələbə Özgəcan Arslanın zorlanaraq öldürülməsindən sonra bir sıra nazirlər müqəssirə ölüm hökmü verilməsi tələbi ilə çıxış ediblər. Xatırladaq ki, Türkiyədə ölüm hökmü 2001-ci ildə ləğv edilib, lakin 1986-cı ildən tətbiq edilmir. Statistikaya görə, ötən il Türkiyədə 228 qadın xüsusi amansızlıqla öldürülüb. Özgəcan Aslanın öldürülməsinə etiraz üçün küçələrə çıxan minlərlə insan da qatilə ölüm hökmü istəyib.

Azərbaycanda demək olar ki, hər gün Özgəcan Aslan cinayətinə bənzər qətl və zorlama hadisələri baş versə də, cəmiyyətimizdə nədənsə, məhz Türkiyədə baş verənlərin təsiri ilə qadın zorakılığına qarşı etirazlar başlayıb. Sosial şəbəkələrdə, ictimai müzakirələrdə oxşar fikirlər, qadınlara qarşı zorakılıq törədənlərə ölüm hökmünün qaytarılması ilə bağlı tələblər səsləndirilir. "Yeni Müsavat" olaraq cəmiyyətdə müzakirə olunan bu mövzuya biz də işıq salmağa çalışdıq. Sadə insanlardan fərqli olaraq ziyalılar, yazarlar, ictimaiyyət nümayəndələri ölüm hökmünün qaytarılmasını yanlış hesab edirlər.



**Azər Rəşidoğlu:** "Ədalətsiz məhkəmələrin bu missiyanı üzərinə götürməsi anlaşılan deyil"



**Fazil Mustafa:** "Türkiyə cəmiyyətinin bu tələblərini haqlı hesab edirəm"

**"Yeni Müsavat" qəzetinin köşə yazarı Azər Rəşidoğlunun fikrincə, ölüm cəzasının bərpası bir çox fəsadlara yol aça bilər:** "Məhkəmələrin səhv etmək hüququ həmişə olur. Hətta dünyanın ən ədalətli məhkəmələrindən hesab edilən ABŞ məhkəmələri də bir çox hallarda günahı olmayan insanı ölüm cəzasına məhkum edirlər. Bu baxımdan, ölüm hökmünün əleyhinəyəm. Azərbaycanda isə ədalətli məhkəmə sistemi mövcud deyil. Məhkəmələr icra strukturlarından asılı vəziyyətdədirlər. Odur ki, ölüm hökmünün bərpası fəsadlara yol aça bilər. Bu cəza fərqli düşünən insanlara şamil edilə bilər. Bunun isə nə demək olduğunu yəqin ki, hər kəs anlayır. Ümumiyyətlə, edam cəzasının fəlsəfəsini anlaya bilmirəm. Mən ən amansız cinayətkarın da hüquqlarının olduğunu düşünürəm və əminəm etdiyi cinayətə görə o, Allah qarşısında cəzasını alacaq. Ədalətsiz məhkəmələrin bu missiyanı üzərinə götürməsi anlaşılan deyil".

**"Ayna- Zerkolo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı da ölüm hökmünün bərpasının əleyhinə olduğunu bildirdi:** "Mən qəti şəkildə ölüm hökmünün bərpasının əleyhinəyəm. Biz vaxtilə irəliyə doğru bir addım atmışıq, indi geri qayıtmağın mənası yoxdur. Əgər söhbət cəzadan gedirsə, bəzən həbsxana həyatı ölümdən də betər olur. Ciddi rejimli cəzaçəkmə müəssisələri var. Qadınlara və uşaqlara qarşı xüsusi amansızlıqla cinayət törədənləri daha ciddi rejimdə cəzalandırmaq olar. Ancaq istənilən halda ölüm cəzasının verilməsi qəbul edilə bilməz".

**Deputat Fazil Mustafa isə bildirdi ki, uşaqlara qarşı törədilən cinayətlərdə ölüm cəzası tətbiq oluna bilər:** "Türkiyə cəmiyyətinin bu tələblərini mən haqlı hesab edirəm. Azərbaycanda da azyaşlılara qarşı törədilən cinayətlərə görə biz təklif etmişik ki, ölüm hökmü bərpa olunsun. Ancaq bu real deyil. Çünki Avropa Şurası qarşısında öhdəliyimiz var. İndiki məqamda bu öhdəlikdən geri çəkilmək Azərbaycan üçün çox çətindir. Ancaq buna baxmayaraq, bu istiqamətdə işlərin getməsi lazımdır. Təbii ki, burada məhkəmələrin nə dərəcədə ədalətli olacağı da rol oynayır. Ancaq ölüm hökmünün tətbiqində prosedurələr bir qədər fərqlidir. Bütün hallarda müəyyən müddətdə gözləmə imkanları var. Ölüm hökmü tətbiq olunan kimi insan öldürülmür. Müəyyən müddət keçir və o müddət ərzində bu məsələ öz həllini tapır. Burada prezidentə müstəsna səlahiyyətlər verilir. Biz bu cəzanın yalnız azyaşlıların xüsusi amansızlıqla öldürülməsi ilə bağlı qəbul edilməsinin tərəfdarıyıq. Burada qadınlara qarşı törədilən cinayətlər də təvsif oluna bilər. Ancaq qadın zorakılığı ilə bağlı bütün hallarda ölüm hökmünü tətbiq etmək düzgün deyil".

❑ **Nərgiz Liftiyeva**

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015

**"Qürbətdəki BİZ"**

**İndi heç kimi belə cümlələrlə təəccübləndirmək olmaz: "Filan xarici ölkədə küçələri şampunla yuyurlar, itlər üçün gözəllik salonları var..." Çünki dünyanın o biri ucu bir kompyuter düyməsi qədər yaxındır bizə. Hər şey barədə anında, detallı bilgi əldə etmək isə su içimi qədər asan... Amma və lakin xarici ölkəni bir azərbaycanlı mühacirin dilindən dinləməyin özgə gözəlliyi var. O ölkənin bir parçası olmuş və ya olmaq istəyən, bunu arzulayan... bir azərbaycanlının təqdimatında yaşadığı xarici ölkə. "Yeni Müsavat" bu həftədən etibarən oxucularına yeni bir rubrika təqdim edir: "Qürbətdəki BİZ".**



# "Fransızlarda qadına sitayiş var"

## Könül Dərya Qasımova : "Fransızların tanış olarkən yanaqdan öpüşmələri və əbədi şikayətçi tərzlərinə öyrəşə bilmirəm"

Xatırlayanlar xatırlayır, unudanların yadına isə salaq ki, qəzetimizin bundan öncə "Onunla Azərbaycan" adlı rubrikasında bunun tamamən əksi təqdim edilmişdi. Azərbaycanda yaşayan əcnəbilərin gözü ilə ölkəmiz, onun gözəllikləri, qəribəlikləri, insanlarımızla bağlı hər şey.... bir amerikanın, hindlinin, ispanın, çinlinin... gözü ilə, sözü ilə oxuculara çatdırılmışdı. İndi isə bizim gözümüzlə xaricilərə baxmaq zamanı gəlib.

"Qürbətdəki BİZ"in ilk qonağı isə Fransanın Strasburq şəhərində yaşayan hüquqşünas Könül Dərya Qasımovadır. Modanın, əsrarəngiz musiqinin, mətbəxin, tarixin, estetikanın.... vətəni Fransa və orada bir azərbaycanlı. Və təkcə özü yox, həyat yoldaşı, iki övladı ilə birgə özünə Strasburqda kiçik Azərbaycan yaratmış gənc bir xanım. Hekayəsi də özü qədər maraqlıdır.

***- Könül xanım, Fransada bir azərbaycanlı... Birinci bu hekayənin necə başlamasından danışaq. Necə köçdüz, qərar verməniz, tərəddüdləriniz...***

- Düzü, bizim hekayə bir az qeyri-ənənəvidir. Mən çox xəyal etdiyim bir iş üçün müsabiqəni keçib iş təklifi almışdım, bir aya yığışıb gəldik. 2008-ci ilin sonundan etibarən burdayıq. Demək olar ki, heç tərəddüd etmədik, iş müqaviləsi 4 illik idi deyə, qayıdacağımızı bilirdik deyə, rahat oldu bizə. O müqavilə bitəndən sonra başqası başladı və hələ bir müddət də burdayıq. Arada yığışıb elimizə-obamıza qayıtmaq istəyirik, düzü...

**"Onlara deyəndə ki, bizdə hamı ən azı "2- 3 dildə danışır", çox təəccüblənirlər"**

***- Bir azərbaycanlı üçün Fransaya, fransızlara alışmaq çoxmu çətindir? Adaptasiya süreci necə keçdi?***

- Mənim üçün çətin olmadı. Mən 7 il fransızlarla işləmişdim, dilə və mədəniyyətə bələd idim. Uşaqlar və yoldaşım isə qətiyyən. Oğlum ana məktəbinin son sinfindən başladı və bir kəlmə də fransızca bilmirdi. Ona xüsusilə çətin oldu, çünki ciddi şifahi dərs rejimi var idi. Amma 6 ay sonra artıq danışırdı. Sinifdə-filan qalmadan tədris ilini başa vurdu və normal qaydada ibtidai məktəbə başladı. İndi 11 yaşındadı və fransızca ciddi mütaliə edir. Bura gələndə qızım 2 yaşında idi, elə Azərbaycanca yeni-yeni danışırdı. Ona daha asan oldu, çünki " yasli" yə gedirdi və orda bütün uşaqlarla birgə fransızca "dil açdı". Yoldaşımın ingiliscə danışması faktı onu xilas etsə də, fransızcasının zəifliyi, məncə, ona bir az mane olur *(gülür)*. Ümumilikdə baxanda, elə bir ciddi çətinliyimiz olmadı adaptasiyada. Uşaqlar təbii ki, fransızlara bizdən daha rahat alışdılar, çünki ən çox onlar ünsiyyətdə olurlar fransızlarla. Bizim üçün heç cür öyrəşmədiyimiz bəzi şeylər var. Fransızların tanış olarkən yanaqdan öpüşmələri və ya əbədi şikayətçi tərzləri məsələn. Yoxsa elə bir problem yoxdur.

**"Arada yığışıb elimizə-obamıza qayıtmaq istəyirik"**



***- Çox klassik olsa da, soruşum: fransızlarla azərbaycanlılar arasındakı fərqlər, oxşarlıqlar...***

- Zahirən hər şey fərqlidir. Görünüş, geyim, danışıq tərzi... Daxilən isə, məncə, bütün insanlar oxşardır, acılarımız, sevinclərimiz, travmalarımız... Davranışlara gəlincə, bizimlə ən böyük fərq yəqin ki, qətiyyən tərifin olmamasıdır, əksinə bol tənqid var. Ciddi olsaq, ən böyük fərq, əlbəttə, qadın-kişi bərabərliyi məsələsidir. Bu təkcə fərdləri deyil, bütünlükdə toplumun həyatını tamamilə bizimkindən fərqləndirir. Zahirən də ən gözəbatan fərq yəqin ki, bədən ölçüləridir *(gülür)*.

***- Sizə "klassik bir fransız qadınını və ya kişisini təsvir edin", ... desəm? Necə bir tablo canlanar gözünüzün qabağında?***

- Qeyd edim ki, məncə, Fransada qadın kultu var. Qadına sitayiş. Kişi və qadını birlikdə o tabloya yerləşdirsək, yəqin ki, bir kafedə oturub nəvazişlə gözəl geyinmiş və məğrur, amma zərif qadının kürəyini sığallayan qarışıq saçlı, şərfli kişi olar... Amma təəssüf ki, statistikaya görə xeyli sayda zorakılıq və kişi tərəfindən öldürülən qadınlar da var... Zahiri görünüşcə, fransızlar bir qayda olaraq, incə, arıq olurlar, kişilər də, qadınlar da. Şabalıdı saçlı və yaşıltəhər, qonur, bir sözlə, rəngli gözlü, ovurdları batmış və burunları əyri-üyrü *(gülür)*. Dodaqlarını qabağa uzadıb və həddindən artıq mimika və jestlərlə danışırlar. Geyimləri və həyat tərzləri həyat fəlsəfələrini əks etdirir. Amma bu dediklərim birmənalı deyil. Fransa cəmiyyəti o qədər müxtəlif irqlərdən və millətlərdən ibarətdir ki, belə ümumiləşmələr etmək, düzü, məni narahat edir. Bu gün qızımın sinfi ilə uşaq pianistlərin festivalına getmişdık. Səhnəyə çıxan uşaqla musiqiçilər arasında hər millətdən, hər rəngdən uşaq var idi. Hamısı fransızdırlar və bu müxtəliflik, səmimi deyirəm, çox gözəl görünürdü.

***- Tanıdığınız fransızlara azərbaycanlıları, Azərbaycanı anlatmısız yəqin. Onları bizimlə bağlı nə təəccübləndirir?***

- Mənim necə belə yaxşı fransızca danışmam. Və ya ümumiyyətlə 5 dildə danışmam. Mən onlara deyəndə ki, bizdə hamı ən azı "2- 3 dildə danışır", çox təəccüblənirlər, çünki fransızlar xarici dil məsələsində çox yararsızdırlar. Bu qədər təbii sərvəti olan ölkədən işləmək üçün Fransaya



**"Uşaqlarımıza burda vərdiş etdikləri hovuzlu, kinoteatrlı, zəngin həyatı Bakıya gedəndə verə bilmirik, çünki orda həddindən artıq bahadır"**



gəlməyim də təəccüblüdür onlara. Şərq mədəniyyətindən çıxıb bu qədər qərbsayaq olmağım da... Ölkəmizlə bağlı isə xüsusilə hüquqşünas tanışlarım insan haqlarının bərbad vəziyyətinə, məcburi tibbi sığorta olmamasına, pensiyanın məbləğinə, siyasətlə maraqlananlar Ermənistanla olan münaqişəyə təəccüblənir... Və təbii ki, Azərbaycan nümayəndəliklərinin təşkil etdiyi konsertlərdə və verdiyi kokteyllərdə olanlar da musiqimizə və mətbəximizə və belə tədbirlərə xərclənən pullara təəccüblənirlər.

**"Fransızlar Azərbaycan nümayəndəliklərinin təşkil etdiyi konsertlərdə və verdiyi kokteyllərdə musiqimizə, mətbəximizə və belə tədbirlərə xərclənən pullara təəccüblənirlər"**

***- İldə neçə dəfə gəlirsiz Azərbaycana? Hər gəlişinizdə Azərbaycan sizə necə təsir bağışlayır? Uşaqlığı, tələbəliyi Bakıda keçmiş biri olaraq bu şəhər sizə get-gedə yadlaşır, ya...?***

- Mən tez-tez gəlirəm, ailəcə isə iki dəfə gəlirik. Bəzi yaxşı dəyişikliklər var, şəhərin mərkəzi abadlaşıb xeyli. İnsanların davranışlarında da müsbət dəyişikliklər var, amma həm də əsəb, həyəcan hiss olunur. Mən, əlbəttə, tamamilə nostalji içində oluram Bakıda olanda. Pis şeyləri demək olar ki görmürəm. Biz beynəlxalq olsa da çox kiçik, sakit şəhərdə yaşayırıq. Trafikin vəziyyəti, piyada keçidlərinin az olması və sürücülərin piyadalara qarşı aqressivliyi, polisin vətəndaşa davranışı artıq çox şeyi dərk edən uşaqları ciddi narahat edir. "Atı atın yanında bağlayarsan həmrəng olmasa da, həmxasiyyət olar" məsəlindəki kimi, bütün günü fransızlar kimi şikayətlənir, hər şeyi tənqid edirlər.

**"Bakıya gələndə insanların davranışlarında əsəb, həyəcan hiss edirəm"**

***- Bir azərbaycanlı nə zaman yaşadığı xarici ölkənin tam bir parçasına çevrilir? Ya da çevrilə bilirmi?***

- Buna birmənalı cavab vermək olmur... Düşüncə tərzinin uyğunluğundan asılıdır hər şey. Bəlkə zahirən, fransızsayağı görünə bilər insanımız, şərf taxar, makiyajını uyğunlaşdırar, amma bəzi şeylər, xüsusilə qadına münasibət istər qadınımızda, istər kişimizdə dəyişmir ki, dəyişmir.

***- Fransızlar başqa millətlərə münasibətdə tutumludurlarmı? Onları nə qədər müddət sonra özlərininki hesab edirlər?***

- Bu sual da çətin sualdı. Məncə, tutumlu deyillər. Əksinə, açıqdırlar, maraqlanırlar. Mən bir rəfiqəmin başqa şəhərdə yaşayan valideynləri ilə tanış olanda, çox təəccübləndim ki, mənə görə Azərbaycanla çox maraqlanıb, görüşümüzə gələndə "dərsə hazırlaşıb" gəlmişdilər. Özlərinki hesab etməyə gəlincə, məndə belə bir sual yaranmayıb düzü. Gündəlik həyatda mənim fransızdan nə fərqim var ki? Amma məsələnin dərininə gedəndə, yəqin ki, əsildən onlarınkı olmaq bizim üçün mümkün olmayacaq. Siz tam adaptasiya ola bilər və həyatınızı Fransada qura bilərsiniz. Amma bu sizin tam olaraq fransız olduğunuz anlamına gəlməz. Uşaqlığınız Fransada keçibsə, başqa məsələ, əlbəttə. Bu mənada, məncə, uşaqların bizdən daha "fransız" olacaqlar. Bütün hallarda, fərd olaraq, onlara sizin hardan gəldiyiniz vacib deyil: siz normal, mədəni, məsuliyyətli və nəzakətlisinizsə, münasibətlərinizdə heç bir problem olmayacaq.

***- Fransa demək... gözəl mətbəx, moda, estetika, incəsənət deməkdir həm də... Sizin evinizdə fransız mətbəxi, musiqisi, incəsənəti nə qədər hakimdir məsələn? Strasburqda özünüzə balaca bir Azərbaycan yaratmısız, ya onun bir parçasına çevrilmisiz?***

- Düzünü deyim, biz heç vaxt tam azərbaycanlı kimi yaşamamışıq. Qır-qızıl, dəri geyim, içi bahalı qab-qacaqla dolu servant, "evroremont" mənzilimiz olmayıb. Bu mənada bir şey dəyişməyib. Bakıda necə yaşayırdıq, burda da eləyik. Əlbəttə, anamın bişirib bizə də göndərdiyi yarpaq dolması, xəngəl və düşbərəni çıxmaqla (gülür). Şübhəsiz ki, burda yaşadığımız üçün, həm fransız mətbəxi, həm də incəsənəti evimizə daxil olub. Amma ən çox fransa musiqisi və ədəbiyyatı.

***-Uşaqlarınız orda böyüyür, oxuyur... Onların həyatı necədir? Daha çox Fransaya meyllidirlər, ya Azərbaycana?***

- Uşaqların bu suala cavabı odur ki, onlar azərbaycanlıdırlar. Milli kimliklərini belə xarakterizə edirlər. Amma mən birmənalı deyə bilmərəm. Onlar iki mədəniyyətin qarışığı olacaqlar yəqin. Azərbaycana getməyi çox sevirlər, amma bir neçə gündən sonra darıxırlar. Azərbaycanca kitabları elə də sevmirlər *(xüsusən Azərbaycan nağıllarını)*, burda vərdiş etdikləri hovuzlu, kinoteatrlı, zəngin həyatı Bakıya gedəndə onlara verə bilmirik, çünki orda həddindən artıq bahadır. Azərbaycandakı seksist mentalitetə hirslənirlər: qızlar bunu eləməz, oğlanlar bunu eləməz... Bütün bunlara baxsaq, düzü, Fransaya daha meylli görünürlər. Amma özlərindən soruşanda cavab dəyişməz qalır: Azərbaycan.

**"Fransızlarla aramızdakı ən böyük fərq onlarda tərifin olmaması, əksinə, bol tənqidin olmasıdır"**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 39 (6067) 20 fevral 2015




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Fəsadla dolu bir dünyada, mühitdə yaşayırıq. Şeytan (lən) da öz işlərində, öz fəaliyyətindədir. Bu cür durumda, dünyanın bu cür gedişatı olan halında insanların öz vəziyyətlərinə nəzər salması, özünün mənəvi durumu barədə düşünməsi - olduqca böyük bir nemətdir. İnsanların belə bir dünyada Allaha bəndə olaraq addımlamağa çalışması - Allahın xüsusi lütflərinin nəticəsidir. Xoş olsun belə Allah bəndələrinin halına.**

# İnsanın aqibəti ailə münasibətlərinin keyfiyyətindən asılıdır



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Möminlər əslində toplumda peyğəmbərlərin (ə) missiyasının daşıyıcılarıdır

Əgər müqayisə etsək, deyə bilərik ki, necə ki, zamanında peyğəmbərlər (ə) cahil, ölü toplumlara dirilik, mənəviyyat gətirərdilər, halal-haram anlayışlarını gətirərdilər, dəyərləri tanıtdırardılar, o cür də günümüzdə hər bir mömin - təbii ki, daha az səviyyədə - məhz həmin missiyanı davam etdirir. Günümüzdə bəndəliyə iddialı olan hər bir şəxs elə bu missiyanı davam etdirir: mahiyyətcə Allahın sözünü yada salır, Onun unutdurulması yer alan mühitlərdə hərəkəti, davranışı, rəftarı, geyimi, özünü aparması ilə Allahı yada salır. Peyğəmbərlərin (ə) gəlişinin mahiyyətində bu dayanardı. Allahın sözünü çatdırardılar, eyni zamanda özləri də bunu əməli şəkildə yaşadardılar. Xoş olsun o möminlərin, möminələrin, bu istiqamətdə addım atan insanların halına ki, nurani bir yolda addım atırlar. Bunun aqibətlərimizə çox böyük təsirləri var. Çünki bu istiqamətdə çalışmaq - o şəraiti, müqəddiməni yaradar ki, bizlər öz halımızı müsbətə tərəf dəyişə bilək.

## Dünyanın qaranlığına işıq salanlar

Dünyada baş verənlərə nəzər saldıqda çox gözəl mənzərə ilə qarşılaşmaq olar. Bu gün dünyada kimin nəyi varsa, ortalığa qoyub. Dünyanın bu qaranlığının, dəyərlərin sönmüş vəziyyətində, Allah kəlamının daha da az eşidilən bir dönəmdə müsəlman dünyasında mənəvi bir yüksəliş müşahidə olunur. Xüsusən də bu yüksəliş Əhli-beyt (ə) məmləkətlərində sezilir. Heyrətli səhnələr müşahidə olunur.

Məmləkətimizdə də insanlarımız ildən-ilə mənəvi yüksəlişə nail olmaq istiqamətində çox ciddi səy və çalışmalar göstərirlər. Allahdan istəyimiz budur ki, bu dünyada da, Qiyamətdə də xalqımızı, toplumumuzu, millətimizi İmam Huseynin (ə) zəvvarları siyahısında məşhur etsin. Belə xalqın sözsüz ki, gələcəyi var. Ola bilər, hansısa qısa müddətdə enişlər, cürbəcür başqa görsəntilər olsun. Amma bunların hamısı keçicidir. Bu, böyük bir ümid verir ki, bu xalq bu vəziyyəti və durumu ilə böyük dirçəlişə doğru hərəkət edir, aqibətini müsbət tərəfə aparır.

## İnsan həyatı üçün ən önəmli olan - aqibətdir

Mübarək dinimizin nəzərində insanın dünya həyatı üçün ən önəmli məsələ - onun aqibətidir. Allahın Peyğəmbəri (s) buyurur: **"Mömin həmişə öz aqibətinin pis olmasının qorxusu içərisindədir. Ruhu bədənindən çıxana və ölüm mələyi qarşısında zahir olan anadək Allahın razılığına, bağışlanmasına qovuşmasına əminliyi olmur".**

Başqa bir buyuruşunda isə Peyğəmbərimiz (s) buyurur: **"Kimsənin işinin aqibəti sizə məlum olmayınca, ondan yaxşı əməllərinə heyrətə gəlməyin. Çünki insan ömrünün böyük hissəsini, ya bir hissəsini yaxşı işlər görməklə keçirir və bu halda dünyadan köçərsə, cənnətə getmiş olar. Ancaq görürsən insan birdən dəyişir və nalayiq işlər görməyə başlayır".** Bir tərəfdən ümidliyik ki, Allah inayət edib, nəzər salıb, Allahın inaətinin hesabına möminlərin aqibətləri xeyirə doğrudur. Amma bununla yanaşı, arxayınlığımız da olmamalıdır və bu halı davam etdirməyi düşünməliyik. Əlimizdə olanlar - gözəl, dəyərlidir və Allahın böyük inayətidir.

Allahdan istəyimiz budur ki, bunları hər mənada qoruyub saxlamağı, bunların davamlı olmasını nəsib etsin.

## Ailə münasibətləri hər yaş təbəqəsində olan insan üçün aktualdır

Ötən bəhsimiz ailə, ailədə zehni vəsvəsələr, Allah bəyənən ailə münasibətləri ilə bağlı idi. Bu gün həm ölkəmizdə, həm də dünyada ən aktual mövzulardan biri ailə və ailə münasibətləridir. Yeniyetmə üçün aktualdır ki, İslamın bu haqda nə dediyini öyrənsin, gələcək ailəsini qurmağa başlayanda nəzəri baxımından maariflənməsi olsun. Cavan üçün aktualdır ona görə ki, ailə bünövrəsini qurarkən dinin bu haqda nə dediyini bilsin. Toplumun, ürfün bu haqda nə deməsi tamamilə ayrı məsələdir. Amma dinimiz ailə barədə nə deyir? Orta və daha yaşlı təbəqə üçün də bu xüsusilə aktual mövzudur. Evlilik, ailə, bunun içərisində olan münasibətlər - hamı üçün aktualdır.

## Ailə - Allahın ən sevdiyi quruluşdur

Ötən bəhsimizdə əziz İslam Peyğəmbərindən (s) bu hədisi vurğuladıq və bir daha xatırlatmaq yerinə düşər. Həzrət Rəsulallah (s) buyurur: **"İslamda evlənmək qədər Allaha sevimli və əziz olan heç bir bina qurulmamışdır".** Allah bizə görün həyatımızda nə qədər böyük bir fürsət verir. Çox aydın, çox lətif və rahat bir buyuruşdur. Mübarək dinimiz həm fitri ruhiyyəmizə uyğundur, həm əqli halımıza uyğundur, həm hər mənada yaşanması çox rahat olan bir dinimiz var. Amma, bu dini buyurulduğu kimi yaşamaq lazımdır. Ən təbii, ən fitrətdən gələn, ən insan təbiətinə uyğun bir məsələdir ailə qurmaq. İnsan bunu Allah bəyənən kimi qursa, yaşasa, yaşatsa - nəticədə Allaha ən sevimli olan bir binanı qurmuş olar.

## Gənclik dininə riayət etsə, bütün topluma təsir edər

Onu da qeyd etdik ki, ailə qurulması, xüsusən gənc yaşlarında qurulan ailə şeytanı (lən) çox məyus edər. Yenə də ona qayıdır ki, dinimiz, bizlərə şeytandan (lən) qorunmaq üçün də gözəl imkanlar və fürsətləri çatdırır. Peyğəmbərimiz (s) buyurur: **"Gənc çağında evlənən elə bir cavan olmadı ki, onun şeytanı belə fəryad qoparmasın: "Vay olsun ona, vay olsun ona! Dininin üçdə ikisini mənim şərrimdən qorudu". Buna görə də insan digər üçdə biri qorumaq üçün İlahi təqvanı qazanmalıdır".**

Müsəlman gənclər həqiqətən də böyük bir səadət və xoşbəxtliyin içərisindədir. Həm dinlə tanışdırlar, həm imanları var, həm Allah inayət edib bu məsələlərdən xəbərdardırlar, həm İslamın bu cür sağlam maariflənməsindən bəhrələnə bilirlər, həm də şeytanın (lən) şərindən qorunmaq üçün də nə qədər fürsətləri var. Bundan əlavə, təqvaya da riayət etsələr, aqibətləri xeyirli olar. Müsəlman gənclik və yeniyetmələr öz-özlüyündə nə qədər mənfiliklərdən, pis məsələlərdən uzaqdırlar, nəfslərini nəzarətə alırlar. Müsəlman gənclik həqiqətən də dəyərli bir haldadır. Bütün günü toplumda fəsad, mənfiliklər adiləşdirilən zaman gəncin imanlı, təqvalı olması həmin topluma nuraniyyət verər, topluma işıq salar. Bir yaxşı mömin şagird bütün məktəbində təsir qoyaq. Bir yaxşı mömin tələbə, ətrafında nə qədər insanın hidayətinə səbəb ola bilər. Bunlar hamısı çox dəyərli, önəmli məsələlərdir. Şeytan (lən) onların əlindən bezar olar. Onlar o qədər möhkəm olarlar və təqvaya da riayət edərlər ki, nəticədə bütün ətraflarında irəliləyiş olar.

## Ailə ilə bağlı yalnış streotiplər

Ailə ilə bağlı toplumumuzda bəzi məsələlərə yalnış yanaşma var. Halbuki, dinimiz çox zaman bunların tam əksini deyir. Dinimiz ailə qurmağa hazırlaşanlara nikbin, pozitiv olmağı, ruzi ilə bağlı naümid olmamağı tövsiyə edir. Peyğəmbərimiz (s) buyurur: **"Ailə qurun, çünki bu iş sizin ruzinizi artırar".** Ailə qurulması həm də ruzinin artmasına gətirib çıxarar.

Digər yerdə Rəsulallah (s) buyurur: **"Öz subaylarınızı evləndirir. Bu əməllə Allah Təala onların əxlaqını gözəlləşdirər, ruzilərini artırar və mərdliklərini çoxaldar".** Allah Təala nurani ailə təsisatında bu cür bərəkətlər qoyub: ruzinin artması, əxlaqın gözəlləşməsi, insanın mərdliyinin, alicənablığının artması.

Qadının və kişinin üzərində ən böyük haqqı olan kimdir?

Sözsüz ki, ailə qurulmazdan öncə olduğu kimi, ailə qurulduqdan sonra da .İslamın yanaşmasını nəzərə almaq olduqca zəruridir. Çünki ailə qurulduqdan sonrakı mərhələ ilə bağlı olan məsələlərin düzgün tənzimlənməməsi, əvvəldə buyurulan məsələlərin də təsirini aradan aparar. Dinimizin ailə münasibətlərinə dair ailə üzvlərinin hər birinə ünvanlanmış incə buyuruşları var. Bu xüsusda Allahın Peyğəmbəri (s) buyurur: **"Qadının üzərində ən böyük haqqı olan şəxs - onun həyat yoldaşı, onun əridir; kişin üzərində ən böyük haqqı olan şəxs isə onun anasıdır".** Bəşəriyyət bu məsələləri çox təhlil edə, düşünə, cürbəcür qənaətlərə gələ bilər. Amma bir insanın Allaha etiqadı olsa, etiqadı olsa ki, Peyğəmbər (s) elə-belə söz deməz - mütləq şəkildə bu buyuruşların onun davranışına təsiri olar. Sınaqdan keçməyən, heç bir mötəbər qaynağa əsaslanmayan məsələlərlə insan bir yerlərə gedib çıxa bilməz. Xüsusən ailə kimi məsələlərdə, aqibətlə bağlı olan məsələlərdə insan diqqətli olmalıdır. Qadının üzərində ən böyük haqqı olan şəxs - əri, kişinin üzərində ən böyük haqqı olan şəxs isə onun anasıdır. Toplumda hər şeyi öz yerinə qoyan dinimiz var. Bu, əslində insanlara öz məsuliyyətlərini tanıtdırır. Övladların anaları qarşısında nə qədər böyük məsuliyyətləri varsa, xanımların da həyat yoldaşları qarşısında bir o qədər məsuliyyətləri var. Eynilə də bunun əksini demək olar. Nə qədər anaların övladları üzərində məsuliyyəti böyükdürsə, həyat yoldaşlarının da xanımları qarşısında böyük məsuliyyətləri var. Əgər həyat yoldaşı öz xanımına İlahi əmanət gözü ilə baxa bilsə, hər şey öz yerini tutar. Peyğəmbərin (s), Əhli-beytin (ə) bu buyuruşları ilə yaşayan, bunlar dəyər olan ailələrdə nuraniyyət olar.

## Mömin ailələr nümunə olmalıdır

Peyğəmbərimiz (s) buyurur: **"Vay olsun əri narahat edən qadına və xoş o qadının halına ki, əri ondan razı qalar".** İslam dini bütün məsələləri kökündən, bünövrədən həll edir. Kişiyə deyir ki, həyat yoldaşına İlahi əmanət gözü ilə bax, əmanətdar ol. Xanıma da deyir ki, get ərinin razılığını əldə et, elə yaşa ki, o, səndən razı olsun, çünki, aqibətin bundan asılıdır. Bu mənada mömin ailələr bütün toplum üçün əslində nümunə olmalıdır. Bizim həm də yaşayıb-yaşatmaq, ötürmək məsuliyyətimiz var. Xüsusən müasir toplumda, ailələr dağıldığı bir vaxtda çox önəmlidir ki, ailələr bütün bu məsələlərə riayət etsin.

Keçən bəhsimizdə bu buyuruş ətrafında da danışdıq, amma yenə də xatırlatmaq yerindədir. Həzrət Peyğəmbər (s) buyurur: **"Əgər bir kəsə digərinin qarşısında səcdəyə getmək əmri verəsi olsaydım, mütləq qadına öz əri qarşısında səcdəyə getmək əmri verərdim".** Ailədə kişinin bu qədər dəyəri, önəmi var. Amma kişilər bundan sui-istifadə edə bilməz. Çünki əmanətdar insan məsuliyyətini daha da dərindən başa düşər. Dinimiz sui-istifadə edən insanlara çox aşağı xislətli insanlar kimi baxır.

**Allahım, bizlərə İslamı doğru-dürüst yaşayıb və yaşatmağı nəsib et!**

**Allahım, müsəlman ailələrində İlahi dəyərlərə bağlantını gündən-günə artır!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

# Erməni soyadları necə yazılmalıdır?

## Dilçilər və redaktorlar əcnəbi ad-soyadları öz dilimizə uyğunlaşdırıb yazmağı doğru hesab edirlər

**Mətbuatda xaricilərin ad-soyadının müxtəlif formalarda yazılması halları ilə tez-tez rastlaşırıq. Bu hal əsasən də erməni soyadlarında sezilir. Məsələn, bir mətbu orqan Ermənistan prezidentinin soyadını Sarksyan, digəri Sərkisyan, bir başqası Sarqsyan yazır. Ermənilərinin xeyli hissəsinin soyadlarının türk mənşəli olduğu da məlumdur.**



Bu fakt Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunmuş "Türk mənşəli erməni soyadları" kitabında da öz əksini tapmışdı. Kitabda 434 türk mənşəli erməni soyadının geniş və sanballı izahı verilmiş, onların hər birinin türk-azəri mənşəli olması tarixi mənbələrə və tanınmış türkoloq alimlərə, o cümlədən erməni tədqiqatçılarına istinad olunmaqla, elmi dəlillərlə təsdiqlənmiş və tam sübuta yetirilmişdi. Ancaq bu soyadlar hazırda mətbuatımızda bəzən ermənilərin səsləndirdiyi və yazıldığı kimi qeyd edilir. Maraqlıdır, bəs yazılan versiyalardan hansı düzgün və dilimizin orfoqrafik normalarına uyğundur?

**Filologiya elmləri doktoru, dilçi alim Nizami Cəfərov erməni soyadlarını öz dil orfoqrafiyamıza uyğunlaşdırıb yazmağın doğru olduğunu bildirdi:** "Təxminən 17-18-ci əsrlərdən başlayaraq ermənilər soyadlarını cənubi azərbaycanlılardan götürüb. 18-ci əsrin sonları, 19-cu əsrin əvvəllərindən başlayaraq isə ermənilər Şimali Azərbaycan soyadlarını işlədiblər. Ancaq təbii ki, onların dilində olan bəzi səslər bizim dilimizdə yoxdur. Məsələn, ermənilər Köçəryan yox, Koçəryan, yaxud da Dəmirçiyan deyil, Demirçiyan yazırlar. Yəni onlar adları öz fonotik quruluşlarına uyğunlaşdırıb yazırlar. Amma bizim praktikamızdan da göründüyü kimi, ermənilər soyad formalarını ikili formada yazırıq. Koçəryan da yazırıq, Köçəryan da. Bunun da prinsipi yoxdur. Onlar necə işlədir, necə yazırlarsa, o cür də işlətmək doğrudur, bizim dilimizə uyğunlaşdırıb işlətməkdə doğrudur. Heç biri səhv sayılmır. Əsas odur ki, ermənilərin soyadlarının kökünü Azərbaycandan götürüblər. Onlar bu adları Azərbaycanın mədəniyyətinin təsiri ilə götürüblər. Məsələn, Köçəryan soyadının kökünə diqqət edək, burada soyadın kökü "Köçəri"dir. Buna görə də onların soyadlarını öz fonetikamıza uyğun olaraq yazsaq daha yaxşı olar. Amma Koçeryan yazılması da səhv deyil".

**Ermənilərlə yanaşı digər xarici dövlətlərin prezidentlərinin və siyasətçilərinin ad soyadına gəlincə isə N.Cəfərov bu ad və soyadları da öz dil qaydalarımıza yazmağın düzgün olduğunu dedi:** "Biz nə qədər xarici ad soyadları bizim orfoqrafik qaydalara uyğunlaşdırıb yazsaq, o qədər bizim dilimizin məntiqinə uyğun olar. Necə tələffüz ediriksə, ona uyğun da yazmalıyıq. Məsələn, uzun illər biz, eyni zamanda gürcülər və bütün dünya Tiflis demişik və yazmışıq. Ancaq sonradan Tbilisi forması ortaya çıxıb. İndi biz ikisini də işlədirik. Məsələn, 19-cu əsrdən 20-ci əsrin əvvəllərindən danışanda Tiflis səfəri, Tiflis teatrı, Tiflis mətbuatı deyirik. Amma müasir dövrdən danışanda Tbilisi deyirik. Yəni ikisi də doğrudur. Ancaq yaxşı olardı ki, biz yenə də Tiflis deyək. Hər bir xalq istər-istəməz adları mümkün qədər öz dilinin quruluşuna, fonetikasına, səslənmə xüsusiyyətinə uyğunlaşdırır. Böyük alman şairi Çörçilin adını biz bir neçə cür yazırıq. Yəni adı mənimsəyəndə avtomatik olaraq variantlar əmələ gəlir. Bizdə də yeni yaranan Terminologiya Komissiyası bu məsələləri qanuna uyğunlaşdırmalı, şərti də olsa adlardan bir variantı düzgün hesab edilməlidir, digərləri yox. Amma indiki vəziyyətdə heç bir varianta üstünlük vermək olmur".

**Dilçilik İnstitutunun Lüğətçilik Şöbəsinin müdiri İsmayıl Məmmədov erməni soyadlarının bizim transkripsiyaya uyğun yazılmalı olduğunu bildirdi:** "Erməni ad soyadları öz dilimizin orfoqrafiya qaydalarına uyğun şəkildə yazılmalıdır. "Türk mənşəli erməni soyadları" adlı bir kitab da var. Orada bu barədə geniş yazılıb. Ümumiyyətlə, təcrübə də erməni soyadlarını onların tələffüz etdiyi kimi yazmaq qaydası yoxdur. Bütün xarici soyadlar bizim orfoqrafiya qaydalarına uyğun yazılmalıdır".

**"Yeni Müsavat" saytının redaktoru Xalid Kazımlı erməni soyadlarının əksəriyyətinin türk mənşəli olduğunu bildirdi:** "Erməni soyadlarının yarıdan çoxu türk mənşəli olduğu üçün bu xüsusda dağa-daşa düşməyə ehtiyac yoxdur. Həmin soyadın kökü öz dilimizdə necədirsə, elə də yazılmalıdır. Məsələn, adamın soyadı Nalbəndyandır. Aydın məsələdir ki, sözün kökü "nalbənd"dir. Biz onu "Nalbandyan" kimi yazmamalıyıq. Eləcə "Dəmirçiyan"ı "Demirçyan" kimi yazmamalıyıq. İgityan soyadlı bir erməni deputatı vardı. Onu bəzən İqityan yazırdılar. Yanlış idi. Bu kimi misalları çox artırmaq olar".

**Virtualaz.org saytının redaktoru Famil Cəfərli də hazırda yazılan versiyaların düzgün olduğunu bildirdi:** "Erməni soyadlarının əksəriyyətinin sonluğu "yan" həcası ilə bitir. Elə "yan" kimi də yazılmalıdır. Yəni bu yan şəkilçisi "ian" kimi yazılmalı deyil. Sərkisian yox, Sərkisyan olmalıdır. Deyilişdə də Sərkisyan kimi tələffüz olunur. Mənim fikrimcə, yalnız erməni soyadları deyil, bütün xarici dövlətlərin ad soyadlarını necə tələffüz ediriksə, elə də yazmalıyıq. Məsələn, Riçard sözü belə də yazılmalıdır, Richard kimi yox".

❑ **Günel MANAFLI**



# Mülki Müdafiə Qərargahının rəisi rüşvətə görə tutuldu

**Bakının Nəsimi rayonunda özünü Fövqəladə Hallar Nazirliyinin (FHN) polkovniki kimi təqdim edərək dələduzluqla məşğul olan şəxs saxlanılıb. Əməliyyat zamanı 55 yaşlı Məhərrəmov Əlovsət Əvəz oğlu saxlanılıb. O, vətəndaşları aldadaraq onlardan FHN işə düzəltmək adı ilə pul alıb. Ümumilikdə bu üsulla vətəndaşların 10 min manatdan artıq pulunu mənimsəyən Ə.Məhərrəmov barəsində cinayət işi başlanılıb, istintaq davam edir.**

Qeyd edək ki, Ə.Məhərrəmovun saxlanılması xəbərini report.az saytı yayıb. Ə.Məhərrəmov "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmir Yolu Qovşağı Mülki Müdafiə Qərargahının rəisidir. QSC-dən hazırda Ə.Məhərrəmovun səlahiyyətlərini QSC-nin mühəndis vəzifəsində çalışan Vüsal Məmmədova həvalə olunduğu bildirilib.


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbəbəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularının keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

# Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları: 077 - 769 - 59 - 10; 077 - 365 - 98 - 40; 012 - 497 - 43 - 04**

## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT

Son səhifə

N 39 (6067) 20 fevral 2015

# Gözəllik atlası hazırlandı



Rumıniyalı fotoqraf Mişel Norok 37 ölkəni gəzərək gözəl qadınların şəkillərini çəkib və "Dünyanın gözəllik atlası"nı yaradıb. Gözəllik atlasının yaradıcısı "Daily Mail" qəzetinə verdiyi müsahibədə yeni kitabını hazırlama səbəblərindən danışıb: "Sıxıcı işimdən bezdim və yeni bir işə başlamağa qərar verdim. 2 il əvvəl çantamı və kameramı götürüb dünyanı gəzməyə başladım. Səyahət zamanı millətlərin mədəniyyətlərini öyrəndim, gerçək üzlər və gözəl qadınlar gördüm. Yeni projemə "Dünyanın gözəllik atlası" adını verdim. Bu mənim üçün olduqca önəmli və əyləncəli iş idi. Fərli yerlər kəşf etmək və mədəniyyətlər tanımaq maraqlıdır".



## 256 il yaşamağın sirri

İnanılmaz olsa da çinli Li Ching Yuenin 256 il yaşadığı iddia edilir. Üstəlik, bu iddia dünyanın ən prestijli jurnalı olan "Time" tərəfindən irəli sürülüb. Jurnalda yazılanlara görə, Yuenin 256 il yaşamasının səbəbi "İt-göyərçin-tısbağa" üçlüsüdür. Çinin məşhur döyüşçülərindən biri kimi tanınan Yuenin 1736-cı ildə doğulduğu deyilsə də, rəsmi sənədlər doğum ilinin 1677-ci il olduğunu göstərir. Bu doğum tarixlərinə görə döyüşçünün 1933-cü ildə öldüyü zaman 197 və ya 256 yaşı olmalı imiş. Hər iki halda o, dünyanın ən uzun müddət yaşayan insanı olub. O, həyatını dağların ətəklərində bitki toplayaraq və uzun yaşamağın sirrini öyrənməyə çalışaraq keçirib. 1748-ci ildə Çin ordusunda döyüş müəllimi kimi çalışmağa başlayıb. Bəziləri onun təbii yollarla öldüyünü desə də dostları "bu dünyada edəcəyim hər şeyi etmişəm, artıq evə gedirəm" deyərək özünü öldürdüyünü iddia edirlər.

Ching Yuen hər zaman uzun yaşamağın sirlərini belə açıqlayırdı:

- Təmiz ürək;
- Tısbağa kimi oturmaq;
- Göyərçin kimi yerimək;
- İt kimi yatmaq.

## 8-ci mərtəbədən yıxıldı, amma sağ qaldı

Rusiyada inanılmaz hadisə baş verib. Sibirin Leninska Kuznetçsova şəhərində bir nəfər yaşadığı binanın səkkizinci mərtəbəsindən aşağı yıxılıb. 23 yaşlı gənc həddindən artıq sərxoş olduğu üçün müvazinətini itirib və mənzilinin eyvanından yıxılıb. Maraqlısı ondadır ki, yıxılan şəxs hadisədən yüngül sıyrıqlarla xilas olub. Hündür mərtəbəli binadan yıxılaraq möcüzəvi şəkildə sağ qalan sibirli gənc daha sonra ayağa duraraq evinin yolunu tutub. Hadisə təxminən gecə saat 3 radələrində baş verib. Gənc oğlanı ölümdən həyətdə qalaqlanmış qar topası xilas edib. Gənc oğlan eyvandan düşərkən evdə onun otaq yoldaşı olub. O, dərhal təcili yardıma zəng edərək hadisə yerinə həkim çağırıb. Xəstəxanaya aparılan gəncin səhhətində heç bir ciddi problem olmadığı məlum olub. Həkimlər gəncin həddən artıq sərxoş olduğunu bildirib.





## Bəy xəstələndi, gəlin başqasına ərə getdi

Hindistanda baş verən qəribə toy ölkə mediasının gündəmindən düşmür. Bir neçə gün əvvəl təşkil edilən toy mərasimi zamanı bəy huşunu itib. Məlumatlara görə, Jugal Kişore adlı bəy xəstə olduğunu gəlindən gizlədib. Toy zamanı bəy huşunu itirib və hər şey məlum olub. Bəyin xəstələndiyini görən gəlin toya gələn dəvətlilər arasından özü üçün yeni bir bəy tapıb və onunla evlənib. Bir neçə saat sonra xəstəxanadan çıxan Kişore gəlinin yanına gəlib onunla evlənmək istədiyini desə də, qız qərarından vaz keçməyib. Kişorenin ailəsi polisə şikayət etsə də, gəlin ərə getdiyi üçün ona bir şey etmək mümkün olmayıb. Toyu yarımçıq qalmış bəyin ailəsi şikayətlərini geri götürməyə məcbur olub.

## Qoroskop




**QOÇ** - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**BUĞA** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

**ƏKİZLƏR** - Göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Xislətinizdən asılı olaraq ətrafda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

**XƏRÇƏNG** - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəyməz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və büdcədə artım da gözlənilir.

**ŞİR** - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

**QIZ** - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə, müttəfiqlərinizi itirəcəksiniz.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, vaxtınızı bütünlüklə münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Dini dəyərlərə hörmət edin.

**OXATAN** - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

**OĞLAQ** - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şanslarınızı itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

**SUTÖKƏN** - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

**BALIQLAR** - Gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq. Buna baxmayaraq, kifayət qədər dəyərli bir gün yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı rəğbət yaradacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 104 dovşanla birlikdə yaşayır





Almaniyada yaşayan bir qadın kiçik evində 104 dovşanı ilə birlikdə yaşayır. 48 yaşlı qadının evindən pis qoxu gəldiyini deyən qonşular polisə şikayət ediblər. Polislər evin qapısına yaxınlaşdıqları zaman evdə çoxlu sayda heyvan saxlanıldığını başa düşüblər.

Adı açıqlanmayan qadının evinə girən polislər evin hər yerində dovşanlar olduğunu görüblər. 104 dovşan plastik qəfəslərdə saxlanılırmış. Dovşanların sahibi olan qadın əvvəllər az sayda heyvanı olduğunu, lakin onların birdən-birə çoxaldıqlarını deyib. Heyvanlarını verməyə qıymayan qadın onları eyni vaxtda saxlamağa qərar verib. Qadının evindəki dovşanlar S-Botang zooparkına aparılıb. Dovşanların sahibi heyvanlara işgəncə etdiyi üçün məhkəməyə çıxarılacaq.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300